**NOVRUZ BAYRAMINIZ MÜBARƏK!**

İctimai, elmi, ədəbi-bədii, mədəni, əyləncəli

ailənizin qəzeti

# Xəmsə

www.khamsa.az

20-27 mart, 2005-ci il (11/15)

Qiymәti 1000 manat

## TV-PROQRAM
səh. 7, 10

**Viktorinaya cavab verin, musiqi mərkəzi qazanın!**
səh. 13

## SKANVORD
səh. 14



## AŞIQ ƏLƏSGƏR SAZ-SÖZ BAYRAMI
səh. 9



## Məşum 23 mart günü
səh. 2

## "DÜNYADA TƏK GÖZƏLİM SƏNSƏN"
səh. 12





## YOYŞT FRİYAN MİFİ VƏ AZƏRBAYCAN
səh. 3



## Nöqteyi-nəzər və ya müəllif baxışı
səh. 4



## NOVRUZ GƏLDİ, YAZ GƏLDİ...



## MƏNİM ÖLÜM XƏBƏRİM ANAMA DESİN YELLƏR
səh. 8



## NOVRUZ SÜFRƏSİ
səməni halvası, noğul...
səh. 15

*Bahar qızı Könül*



## DÜNYA MƏHƏBBƏTDƏN FIRLANIR
səh. 11

# Məşum 23 mart günü

18-ci əsrin ikinci yarısında **Fətəli xan Qubalı** bəzən güc tətbiq etməklə, bəzən isə diplomatik yollarla Azərbaycan xanlıqlarını özünə tabe edirdi və bununla da vahid Azərbaycan yaratmaq ideyasını həyata keçirirdi. 80-ci illərin axırlarında Fətəli xanın hakimiyyəti o qədər möhkəmlənmişdi ki, gürcü çarı 2-ci İrakli, Rusiya imperatoru və İran şahını "ağızlarının içindəcə" bu cür güclü dövlətin yaranması qane etmirdi. Xüsusilə bu dövlətə Fətəli xan kimi bacarıqlı siyasətçinin və sərkərdənin başçılıq etməsi imperatorla şahın siyasi marağına uyğun gəlmirdi.




Qarabağ xanlığını özünə tabe etdikdən sonra Fətəli xan Şamxorda gürcü çarı 2-ci İrakli ilə görüşdü. Görüşdə Gəncə və Şəki xanları da iştirak edirdilər. Bəzi tədqiqatçıların iddiasına görə, Fətəli xan görüşdən sonra Qubaya yola düşür, yolda ikən qəflətən xəstələnib yolüstü Bakıya, bacısıgilə düşür və burada vəfat edir. Lakin həqiqət tamam başqa cürdür.

Fətəli xan Azərbaycanda yeganə qüvvə idi ki, hamı onunla hesablaşır və tabe olurdu. O öz siyasi bacarığı ilə xarici müdaxilənin qarşısını almış, 30 ildən çox Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışdı. Təbii ki, onun düşmənləri də çox idi.

Rusiya Azərbaycanın düşmənçilik nəticəsində xırda xanlıqlara parçalanmasına səylə çalışırdı ki, sonradan bu ölkəni istila edə bilsin və İranla Hindistanın sərvətlərinə doğru irəliləsin.

Gürcüstan güclü qonşudan yaxa qurtarmaq, eyni zamanda məğlub qonşunun hesabına ərazilərini genişləndirmək fikrində idi.

İran Fətəli xanın məhv edilməsində çox maraqlı idi, çünki Azərbaycanın, sonra isə bütün Qafqazın istilasına çalışırdı.

Yerli xanlar isə güclü şəxsiyyətdən canlarını qurtarmaq və onun yerini tutmaq istəyirdilər.

Bəli, Fətəli xanın düşmənləri olduqca güclü və məkrli idi. Onlar birləşib bu ağıllı xanı yox etmək tədbirləri tökürdülər. Nəhayət, Şamxorda 2-ci İrakli ilə danışıqlardan sonra təşkil olunmuş naharda Fətəli xanı zəhərləməyə nail olurlar. Zəhər dərhal yox, tədricən qana yeridiyindən (planda da məhz bu cür nəzərdə tutulmuşdu) bir neçə gündən sonra Fətəli xan vəfat etdi.

Fətəli xan sonralar unuduldu. Anılanda da kommunistlərin səyi nəticəsində satqın kimi - Azərbaycanı Rus imperiyasına satan günahkar kimi təqsirləndirildi. Bir çox Azərbaycan tarixçiləri isə öz məhdud maraq dairələri xatirinə tariximizin bu dövrünə barmaqarası baxdılar.

Deyirlər, əvəzolunmaz adam yoxdur. Lakin Fətəli xanın ölümü sübut etdi ki, o, həqiqətən, əvəzolunmazdır. Onun yolunu heç kim davam etdirə bilmədi. Şah İsmayıl Xətainin oğlanları kimi, onun da oğlanları atalarını əvəz edə bilmədilər. Nəticədə Azərbaycan xırda xanlıqlara parçalandı. Marığa yatan Rusiya və İran da bundan lazımınca istifadə etdi.

Fətəli xanın ölümü ilə millətimizin faciəsi başlayır. Bu faciənin Zəngəzur və Göyçə, İrəvan və Qarabağ, Borçalı və Dərbənd kimi yaraları var.

Bu tarixi unutmayın: **23 MART 1789-CU İL - FƏTƏLİ XAN QUBALININ ÖLÜM GÜNÜ!** Milli faciəmizin başlanğıc anı!..

*(Asəf Kərimovun fikirlərinə istinad olunub)*

# İdrak yuxuya gedəndə dəhşət törənir

**Abbas Mirzə Şərifzadə**

Otello, Hamlet, Şeyx Sənan, Aydın, İblis, Elxan, Seyran, Balaş, Xlestakov, Karl Moor, Ferdinand, Don Juan və daha neçə-neçə klassik obraza həyat nəfəsi vermiş məşhur aktyor Abbas Mirzə Şərifzadəni **1938-ci il martın 17-də** gecə saat 2-3 radələrində evdən apardılar. Sorğu-suz-sualsız… Apardılar ki, bir daha geri qayıtmasın. Apardılar ki, teatrın, səhnənin ecazkar qüdrətinə vurğun olanlar bu aktyorun füsunkar oyununa həsrət qalsınlar. Kim ki həmin gün Abbas Mmirzəni səhnədə görmüşdü, kim ki onunla kəlmə kəsə bilmişdi - həmin ünsiyyət çağlarını müqəddəs xatirəyə çevirdi. Kimə ki bütün bunlar qismət olmamışdı, özünü və bəxtini qınadı…

**İsmixan Rəhimov**

Tanınmış dilçi alim İsmixan Rəhimovun **1949-cu ilin martın 21-də** məhkəməsi oldu. Hökm oxunacaqdı. Son söz imkanı veriləndə içi qəzəblə qaynayan İsmixan müəllim gərginlikdən boğulan tutqun səslə: "25 il iş alsam da, çox şadam ki, mənə cəza verilməsi haqda hökm belə gözəl Azərbaycan dilində oxundu" dedi.

**Stalin**

**1953-cü ilin martında** Stalin öldü. Tutqun və tünd Stalinin 1930-1953-cü illərdə həyata keçirdiyi qanunsuzluq, istibdad, zorakılıq, qırğınlar və kütləvi cəza tədbirləri sistemi kökündən laxladı. İnsanlarda ağır boğucu vəziyyətin dəyişəcəyi ümidi parladı.

***(İstinad: "Ağ ləkələr silinir" kitabı)***

***İşlədi: Xatirə Əsilbəyli***

# BU NƏ HİCRAN Kİ, YETİŞMƏKDƏ VÜSAL ƏTRİ MƏNƏ?..

On birinci İran Səfərnaməsi

## YEDDİNCİ MƏQALƏ

**23 dekabr.** Yenə "Kaxe-Hafiziyyə"dəyik. Bu gün II İranşünaslıq Konfransının qapanış günüdür. Son iclas (extetamiyyə). D-r Həddad Adil içəriyə daxil oldu. İrana onuncu səfərim zamanı onunla görüşmüşdüm. O vaxt o, Xarici İşlər Nazirliyində məsul bir vəzifədə çalışardı (beynəlxalq münasibətlər üzrə). İndi isə İran Milli İslam Şurasının sədridir.

Hər bölmə üzrə hesabatlar dinlənilir.

Sonra xarici ölkələrdən gələn bəzi nümayəndə heyətlərinin bir üzvünün çıxışı oldu. Tərəfimizdən prof. Təhminə Rüstəmova bu əzəmətli konfrans barədə öz təəssürat və arzularını bildirdi. Gürcüstan nümayəndə heyəti adındansa köhnə tanışım Beradza danışdı. Biz vaxtilə, sovet hökümətinin yıxılmadığı vaxtlarda tez-tez Moskvaya toplaşar, demək olar ki, hər il keçirilən "Bartold oxusu" adlanan Ümumittifaq konfransında iştirak edirdik. İndi isə elə konfranslar keirilmir. Çox təəssüf!..

Təhminə müəllimənin çıxışından sonra foyeyə bir kresloda əyləşdim və bu qitəni qələmə aldım:

## Qitə

*Dünya, səni bezdirdi aşiqlərin əfğanı,*
*Məcnun eləyir nalə, Fərhad eləyir fəryad.*

*Gəlmir gözümə röya, yetimr dadıma xülya,*
*Röya eləmir çarə, xülya eləmir imdad.*

*Sevdaya könül vercək səhv eyləmişəm, çünkü*
*Sevda neçə müddətdir qovğa eləyir icad.*

*Rəbbin işini bilmək mümkün deyil insanə,*
*Abadı edir bərbad, bərbadı edir abad.*

*Yoxdur buna şəkk əsla: İlham ikiqat artar,*
*Əcdadına bənzərsə əzmində əgər övlad.*

*Şair neçə gündür ki, Sədi elinə gəlmiş,*
*Hər lütfünü İranın daim edəcəkdir yad.*

*Şagird ilə ustadı Tehranda edir təmsil,*
*Şahin kimi bir şagird, Təhminə kimi ustad.*

Mən iclas salonuna qayıdanda d-r Həsən Həbibi xitabət kürsüsündəydi. O, hamımıza təşəkkür etdi, yeni-yeni elmi uğurlar dilədi. D-r Həsən Həbibidən sonra d-r Həddad Adilə söz verildi. O, İranın beynəlxalq münasibətlərindən və hərtərəfli, o cümlədən elmi müvəffəqiyyətlərindən ətraflı danışdı. Bilikli adamdır. Olduqca işgüzardır.

Konfransın qapanışından sonra iki Rza ilə görüşdüm. Birinci Rza (soyadı Fərasət idi) çox fərasətli kitabdar alimdir (kitabşünasdır). O, bir gün əvvəl mənim məruzəmi məndən götürmüş və onun surətini özü üçün çıxarmışdı. Məruzəmin əslini mənə qaytaran Rza Fərasəti təşəkkürünü bildirməyi də unutmadı.

İkinci Rza (soyadı Əxlaqidir) isə mübahisə etməyi sevir. Azərbaycanlıdır. Onu narahat edən məsələ iki Azərbaycan mövzusudur. Hey deyir ki, sizin Azərbaycanın bizim Azərbaycana dəxli yoxdur. İzahımın bəzisi ilə razılaşır, bəzisi isə onu qane etmirdi. Vaqif Buduqlu və Qasım Hacıyev də söhbətimizə qoşuldu. Rza Əxlaqi mübahisə etməyi sevir…

# AYIN MƏŞHUR GÜNLƏRİ

*20 mart*



***1879 - Görkəmli aktyor Hüseynqulu Sarabski anadan olub.***

***1912 - Rəşid Behbudovun qardaşı, RSFSR-in xalq artisti Ənvər Behbudov anadan olub.***

*21 mart*



***Novruz bayramı.***



***İrqi məhdudlaşdırmanın aradan qaldırılması uğrunda beynəlxalq mübarizə günü.***

***Ümumdünya Yer kürəsi günü.***



***1906 - Xalq şairi Səməd Vurğun dünyaya gəlib (1906-1956).***



***1825 - İlk sovet təyyarəsinin konstruktoru Aleksandr Mojayski anadan olub.***

*22 mart*



***Ümumdünya meteoroloqlar günü.***

***1893 - Xalq artisti, teatr və kino aktyoru Abbas Mirzə Şərifzadə anadan olub.***



***1899 - Şair, yazıçı-dramaturq Cəfər Cabbarlı anadan olub.***



***1913 - Xalq artisti Əlağa Ağayev anadan olub.***



***1919 - Xalq yazıçısı, pedaqoq və ictimai xadim İsmayıl Şıxlı anadan olub.***

***1924 - general Akim Zamanov anadan olub.***

***1933 - xalq artisti, muğam ifaçısı Rubabə Muradova anadan olub.***

*24 mart*

***Vərəmə qarşı ümumdünya mübarizə günü.***



***1713 - Peterburq şəhərində Aleksandr Nevski kanalı açılıb.***



***1743 - Yelizaveta ölüm cəzasının ləğvi haqqında əmr verib.***

***1872 - Yazıçı Məmməd Səid Ordubadi anadan olub.***



***1906 - Bakı küçələrində ilk elektrik fənərləri yandırılıb.***

*25 mart*

***1897 - Qocaman jurnalist Qulam Məmmədli anadan olub.***

*26 mart*

***1910 - Yazıçı-dramaturq Sabit Rəhman anadan olub.***



***1910 - SSRİ xalq artisti, teatr və kino aktyoru Ələsgər Ələkbərov anadan olub.***



***1919 - Məşhur dənizkənarı Bakı bulvarının tikintisinə başlanılıb.***

*27 mart*



***Beynəlxalq teatr günü.***

***1893 - Üç dövlətin (Azərbaycan, Gürcüstan və Rusiya) xalq artisti, Karmen rolunun ifaçısı Fatma Muxtarova anadan olub.***



***1927 - Görkəmli violonçelist və dirijor Mstislav Rostropoviç anadan olub.***



***1945 - Azərbaycan Elmlər Akademiyası təsis edilib.***




Azərbaycan türklərinin bir çox nağıl, lətifə, rəvayət və əfsanələrində tapmacalardan müxtəlif üslubi fiqur kimi istifadə olunur, hətta dövlət işlərində böyük əhəmiyyət daşıdığı göstərilir. "Dərzi şagirdi Əhməd" nağılında iki qarşı-qarşıya gələn ölkənin biri digərinə tapmaca göndərir, cavab tapmadıqları halda təslim olmaları, ya da ölkənin padşahının gözəl qızının düşmənin hərəmxanasına göndərilməsi şərti qoyulur. "Daşdəmirin nağılı"nda isə tapmaca sözlə deyil, əşyalarla şərtlənir. Bir sıra dastanlarda qız onu istəyənlərə tapmacalar (qıfılbəndlər) söyləyir, düzgün yozanla evlənəcəyini bildirir. Folklorda geniş yayılan motivlər: tapmacaları açıqlamayan padşahın taxtdan salınması, ya da qarşı tərəfə çoxlu xərac ödənilməsinin tarixi köklərində Yoyşt Friyan haqqındakı mifik təsəvvürlər durur. Bu ənənə klassik yazılı ədəbiyyatda özünə daha geniş yer almışdır. Hekayətlər və pritçalar toplusu olan "Mərzban - namə"də Qavbay adlı bir devlə müdrikin mübarizəsinə rast gəlirik. İran alimi Məhəmməd Moinin 1945-ci ildə Tehranda nəşr etdirdiyi mətndə və ön sözdə göstərilir ki, "Mərzban - namə" Yoyşt Friyan haqqındakı mifik təsəvvürlər əsasında hicri tarixi ilə dördüncü yüzillikdə (təxminən 1058-1106-cı illər arasında) təbəri dialektində (Mazandaran) Sipahbad Mərzban ibn Rüstəm ibn Şirvin Pərim tərəfindən yazılmışdır. O, sasani hökmdarı Ədalətli Ənuşirəvanın (I Xosrov Ənuşirəvan, 531-579) qardaşı Key-Kavus ibn Qubadın otuzuncu nəsli Bavəndin törəməsi idi. Bu əsər ilk dəfə hicri tarixi ilə 598-ci ildə (yəni 1201-ci ildə) fars dilinə tərcümə olunmuşdur. Kiçik Asiyada (indiki Türkiyədə) Qızıl Arslanın oğlu Süleyman şahın vəziri Məhəmməd ben Qazi əl-Malatyəvinin (Malatyalı) çevirdiyi mətnin adı ərəbcə idi - "Raudət əl-Ükul" ("Müdriklik bağı"). Dili çətin və dolaşıq olduğundan bu mətn o qədər də məşhurlaşmamışdır. Azərbaycan Atabəylər dövlətinin təşəbbüsü ilə əsərin yeni tərcüməsi hazırlanmış və bütün Şərqdə şöhrət qazanmışdır. Beləliklə, birinci çevrilmədən bir neçə il sonra, hicri tarixi ilə 607-622-ci illərdə (yəni 1210-1225-ci illərdə) Təbrizdə Atabəy Məhəmməd Eldəgizin oğlu Özbəyin vəziri Hacı Əbülqasım Rəbib-əd-Din Harunun qohumu Saəd-əd-Din Varav "Mərzban - namə"nin təbəri orijinalı əsasında yeni tərcüməsini meydana gətirdi. Azərbaycan Atabəylərinin sarayında hökmdar övladlarının tərbiyəsində ulu əcdad Yoyştun təsiri ilə yaranan ədəbi əsərin böyük rolu olmuşdur. Həmin mətn Məhəmməd ibn Əbdülvahab Qəzvini tərəfindən 1909-cu ildə Leydendə (Hollandiya) çap etdirilib Avropaya yayılmışdır.

"Mərzban - namə"nin dördüncü fəslinin iki hissəsi: "Qavpay dev və mömin", "Münəzzirin Qavpay devlə mübarizəsi" əski mifik görüşləri əks etdirir. Burada göstərilir ki, tarixəqədərki çağlarda divlər insanların arasında gəzib-dolaşır, onları açıqdan-açığa yoldan çıxarırdı. Bu hal o vaxtadək davam edir ki, Babol məmləkətində (Mazandaranda yer adıdır) bir allah bəndəsi peyda olur. O, dağın zirvəsində özünə yuva salıb insanlara düzlüyü öyrətməyə başlayır, hamını haqqa çağırır. Çoxları onun ardınca gedib məsləhətlərini dinləyir, divlərdən üz döndərib şəriət yolunu tuturlar. Bütün şər ruhlar yığışıb divlərin başçısı Qavpayın - şeytanların və cinlərin məsləhətçisinin yanına şikayətə gedirlər. Qavpay eşidəndə ki, bir möminin şöhrəti bütün dünyaya yayılıb, qəzəbindən od tutub yanır. O, əmrlərinin icraçısı, çətin anlarda dadına çatan üç əsas yardımçısına üz tutur. Onların məsləhətlərini dinləyib qərara alır ki, bütün varlıqları bir araya toplayıb möminlə gizlin elmlər və həqiqi şeylər barədə yarışsın. Meydana min qəddar yaranışlar, şər ruhlar, şeytanlar, bütün divlər, pərilər, insanlar toplaşır. Div Qavpay belə şərt qoyur ki, sorğularına mömin cavab versə, divlər insanlardan həmişəlik ayrılacaq. Əgər cavab verməsə, onu öldürəcəklər. Div Qavpay möminə on sual verir. Bir neçəsini nəzərdən keçirək: dünya necə hissəyə ayrılmışdır? Mələklərin, divlərin və insanların mahiyyəti nədən ibarətdir? Ağlın rolu nədir? O nədir ki, həm mövcuddur, həm də mövcud deyil? Kimlər ağıllı adamlar sayılır? Əşyalardan insana ən yaxını hansıdır?.. Demək olar ki, sual-tapmacaların hamısı turanlı Yoyşt haqqındakı mif əsasında qurulmuşdur. Möminin düzgün cavab verdiyini görən divlər təşvişə düşürlər və işıqlı dünyadan çəkilib yer altında yerləşirlər.

Azərbaycan Atabəylər dövlətinin qüdrətli hökmdarı Məhəmməd Cahan Pəhləvanın ailəsini bu epizoddakı hansı məsələ özünə cəlb etmişdi ki, əsəri bütün Şərqdə saray və ədəbi dil sayılan farscaya çevirtdirmişdilər? Bizə elə gəlir ki, həmin hekayətdə ulu əcdadları Yoyşt Friyanın hünərinin başqa soydaşı tərəfindən təkrarlandığını, "ağıllı uşaq"la bağlı el ağsaqqallarından eşitdikləri nağıl və əhvalatların məğzini görmüş, övladlarının da o ruhda tərbiyə almasını istəmişdir. Firdovsi fars gənclərini Keyxosrovun ənənələrinə qayıtmağa çağırdığı kimi, şərə, sözə böyük qiymət verən Atabəylər sülaləsinin hökmdarları da nəvə-nəticələrinə ulu əcdadları Yonuşaq Turanın müdrik əməllərini xatırlatmaqla türkün başdan-binadan haqqı, ədaləti qoruduğunu nümayiş etdirmişdilər.

Onu da xatırladaq ki, Eldəgizlərin hakimiyyəti dövründə yaşayan Nizami Gəncəvi də yaradıcılığında tapmacaların gizli dilindən müxtəlif məqsədlərlə istifadə etmişdir. Şair bəzən hadisələri iki nəfərin qarşılaşması və adi sorğu-sualı şəklində nəzərə çatdırmış, birbaşa Yoyşt-Axt mifindən təsirləndiyini nümayiş etdirmişdir. Belə ki, "Yeddi gözəl" əsərində turanlıların qarşılaşmasına parodiya şəklində yaradılan Bişrlə Məlixanın əhvalatına rast gəlirik. Məlixa şərin təmsilçisidir, özünü hamıdan ağıllı və bilikli zənn edir ("Tapmaca açıqlayanlar" ölkəsinin sakinləri kimi), rastlaşdığı adamlara ilk baxışda müəmmalı, fərqinə varanda isə boş, mənasız suallar yağdırır, öz təsir dairəsini genişləndirməyə can atır. Lakin Bişr onun "tapmaca"larının məntiqə əsaslanmadığını ilk andan duyur. O, adi təbiət hadisəsinə və varlıqlara aid müxtəlif sorğulara (məsələn, "nə üçün buludun biri qır kimi qara, o biri isə süd kimi ağdır?", "əsən yel nədir?", "bu dağ nə üçün o birindən əzəmətlidir?" və s.) eyni cavabı verir ki, "Allahın buyuruğu ilə olan işdir". Məlixa susuz səhrada ağzı küp şəkilli dərin su quyusunu görəndə fövqəltəbii aləmlə rastlaşıbmış kimi, Bişrdən xəbər alır ki, "ağzı açıq saxsı küp nə səbəbə dodağına qədər yerin içində gizlənmişdir? De görüm, bu küpün suyu hardandır? Onun ətrafı ki, dağ ətəyi deyil, səhradır?" İnsan əlləri ilə xeyirxahlıq məqsədi güdülərək qazılan quyuya sirli bir yer kimi yanaşan Məlixanın sorğusu gülünc görünür. Bişr təəccüblü bir şeyin olmadığını onunla əlaqələndirir ki, bir nəfər ehsan üçün düzəltdirmiş, səhrada susayan yolçuların tələbatını ödəyib xeyir-dua qazanmaq istəmişdir. Məlixa onun cavabını etirazla qarşılayıb, təbiətinə uyğun qəribə qənaət irəli sürür: "Bu, şikar tutmaq üçün tələdir, dağ qoçu, maral, ahu və gur biyabanda şor yem yeyib su içmək istəyəndə nohura tələssin, ovçu da pusquda durub onları yaxalasın". Məlixa tozlu üst-başını soyunmadan küp-quyunun içinə girib çimmək meylinə düşür. Bişr yalvarır ki, yolçuların ürək sevinci ilə içdikləri suyu murdarlayıb günaha batmasın. Məlixa əhəmiyyət verməyib suyun içinə tullanır. Görür ki, bu, bir dərin quyu imiş, nə qədər əlləşirsə, oradan çıxa bilmir. Nəticə etibarilə burada da şər öz layiqli cəzasını alır. Bişr bir kənarda suyun çirklənməsindən ötrü ürəyini ovuşdurduğu, gözləri yaşla dolduğu vaxt Məlixa quyuda həyat-ölüm mübarizəsi aparır və boğulub ölür.

Nizami əsərlərində tapmacalardan "gizli dil" vasitəsi kimi də faydalanır. Şair sözlərsiz, mətnsiz, ancaq əşyalarla şərtlənən tapmacaları "başıbağlı suallar" adlandırır. Müxtəlif məişət və bəzək şeylərinin formasının və yerinin dəyişdirilməsi ilə sorğular verilib cavablar alınır. Qız qulağından iki ləl sırğanı göndərəndə demək istəyir ki, "ömür iki günlükdür". Qarşı tərəf ikinin üstünə üç cəvahirat da artırmaqla bildirir ki, "əgər ömür beş gün də olsa, tez keçib gedər". Onda qız dürrə şəkər əlavə edir, əzib qarışdırır və bununla tərəf-müqabilinə çatdırmaq istəyir ki, "şəhvətlə keçən ömür dürr ilə şəkər kimi bir-birinə qarışıqdır". Hökmdar südü onların üstünə tökəndə qənd əriyir, ləl isə dibində qalır, bunda o məna gizlənir ki, "dürlə qarışan şəkər bir qətrə südlə aradan qalxır". Qız camdakı südlü şəkəri içərək açıqlayır ki, "hökmdarın qarşısında südəmər uşaqdır". Sonra bir nişan üzüyü göndərib onunla nikah bağlamağa razılıq verdiyini vurğulayır. Hökmdar da qiymətli bir gövhər yollamaqla işarə edir ki, "sənə mənim kimi ikinci tay tapılmaz". Qız gövhəri boyunbağısına taxmaqla təsdiqləyir ki, "artıq onun arvadıdır" və "təzə bəy"ə göy muncuq bağışlayır. Hökmdar muncuğu üstünə taxmaqla bildirir ki, "sinəm üstə yerin var"... Bu epizodda iki gənc sözdən, səsdən və mimikadan istifadə etmədən ancaq əşyalarla bir-biri ilə ünsiyyətə girib ürəklərini açır, əhd-peyman bağlayır və hətta ailə qururlar. Maraqlıdır ki, Yoyşt da Axtın qardaşının ürəyini tələb etməklə və onu ovcunda sıxıb əritməklə iki suala əşyayi-dəlillə cavab verir.

Şairin "İsgəndərnamə" əsərinin "Hind həkiminin İsgəndərlə söhbəti" fəslində qoyulan sorğular İslam mifologiyasına əsaslansa da, mayası Axt-Yoşt xəttindən götürülmüşdür. Hindli həkimin ilk sorğusuna ("Tanrının məkanı hardadır?") dünya hökmdarı belə cavab verir ki, "yeri yaradanın yeri olmaz". İkinci sorğuda soruşulur ki, "bu dünyadan kənarda başqa bir şeyə yol varmı?" Makedoniya hökmdarının cavabı Yoyştun "yer cənnəti"nə üstünlük verməsi qənaəti ilə üst-üstə düşür. İsgəndərlə hindlinin qarşılaşmasında deyilir ki, "başqa bir dünya axtarmaq nəyə gərəkdir? Bir halda aydındır ki, burada yaşaya bilərik, oraya səfər etmək nə üçündür?" Yoyştun cavabında göy cənnətinin vəsiqəsi yer üzündə olduğu nişan verilir. İsgəndər də məsələyə həmin prizmadan yanaşaraq bildirir: "Allah iki dünyanı ona görə yaratdı ki, xəzinə orada olsun, açarı isə burda".

Eldəgizlər nəslinin vəliəhdlərinin böyük müəllimi gəncəli əl-Ustadın "Munisnamə" əsərindəki Firdovsinin türk "rəqibi" Sultan Mahmud Qəznəviyə həsr olunan əhvalatlarda da deduktiv tapmacalardan geniş istifadə olunmuşdur.

Ən maraqlısı budur ki, Azərbaycanda Yoyşt Friyanla iki min beş yüz əvvəl başlanan ənənə aşıq sənətində xüsusi formaya (deyişmə, hərbə-zorba) salınmışdır. Əski mifoloji görüşlər və rituallar əsasında yaradılan sinkretik xalq sənətinin orijinal şəkli din başçısının yeniyetmə icma üzvünü sınağa çəkməsi təsiri bağışlayır. Ustad aşıq onun sənətinə qibtə ilə yanaşan başqa saz-söz sahibi ilə fikir yarışına başlayır, qələbə qazanan qarşı tərəfin sazını əlindən alır, bəzən qarşısında aşıqlıqdan tamamilə uzaqlaşmaq tələbi qoyur. Sorğuların, qıfılbənd-müəmmaların əksəriyyətinin məzmununun mifoloji aspektdə qurulması göstərir ki, ustad aşıqlara əcdadları turanlı yeniyetmənin qeyri-adi ağlı və fərasəti bəlli idi. Təsadüfi deyil ki, eşq dastanlarının gənc qəhrəmanları Yoyştun tanrı Anahiddən aldığı sakral gücü buta vasitəsilə Xızırdan, yaxud pirani qocadan qəbul edirlər, sonra bütün gizli fikirlərə (qıfılbəndlərə) cavab tapırlar. Keçən əsrin 30-cu illərinə aid iki əlyazma mətni həm strukturu, həm də qayəsi ilə əski miflə üst-üstə düşür. Oradakı qıfılbəndlərdə sorğular atəşpərəstlik tapmacalarının bölgüsünə oxşar şəkildə qurulur. Hətta hər iki əlyazmada elə sorğular var ki, tamamilə Yoyştla Axtın sual-cavabının eynidir. Əsas fərq ondadır ki, zoroastrizm ideyaları dəyişdirilərək islam təsəvvürlərinə uyğunlaşdırılıb. Belə ki, Çıldırlı Aşıq Şenliklə Borçalı Aşıq Abbas Əlinin deyişməsi 4 hissə (birinci hissə "hərbə-zorba", ikinci "dəyişmə", üçüncü və dördüncü "qıfılbənd" adlanır), 24 bənddir. 6-sı Aşıq Şenliyin (3-ü divani, 3-ü qoşma şəklində), 6-sı da Aşıq Abbas Əlinin (3-ü divani, 3-ü qoşma şəklində) hərbə-zorbası, özünü öyməsidir. Yerdə qalan 12 bənd də bərabər bölünür, altısı Aşın Abbas Əlinin sorğu-qıfılbəndi, altısı isə Aşıq Şenliyin açmasıdır. Qıfılbəndlərin hamısı mifoloji anlayışların şərhinə həsr olunur. Məsələn:

**Abbas Əli:**
*O kim idi çəkdilər tez həzara?*
*O kim idi haqq gətirdi nəzara?*
*O kim idi canı düşdü azara?*
*O kim idi itirmədi imanı?..*

**Aşıq Şenlik:**
*O zəhərdi, çəkdilər tez həzara,*
*Hatəm idi, haqq gətirdi nəzara,*
*O Eyyubdu, canı düşdü azara,*
*O haqq idi itirmədi imanı...*

**Abbas Əli:**
*O nədir ki, üç saatlıq görünür?*
*O nədir ki, dadı yoxdur, yaranır?*
*O nə bağdır, vədəsində dərilir,*
*Nə bağbandır, bağı dərir bu da la.*

**Aşıq Şenlik:**
*Dan ulduzu üç saatlıq görünür,*
*O torpaqdır,*
*dadı yoxdur, yaranır.*
*Dünya bağdır, vədəsində dərilir,*
*Fələk bağban,*
*bağı dərir budala.*

Nəticə etibarilə Aşıq Şenlik bütün suallara düzgün cavab verib rəqibini bağlayır. Qıfılbəndlərdə qoyulan məsələlər ulu əcdad Yoyşt Friyanın Axtla mübahisəsini xatırladır. Lakin mifdə və başqa deyişmələrdə olduğu şəkildə Aşıq Şenliyin qarşılıq qıfılbəndi yoxdur.

**(Ardı var)**

ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33

## *Bədii cəhətdən primitiv kliplər TV-də geninə-boluna yayımlanmaqdadır*

# Nöqteyi-nəzər və ya müəllif baxışı

Avtobusdayam. Sürücünün maqnitofona birləşdirdiyi kasetdən salona xoş bir musiqi yayılır. Bu, Brilyant Dadaşovanın bir zamanlar ifa etdiyi duetlərdən biri olan "hər şey gözəldir həyatda" sözlərilə başlayan mahnısı idi. Yorğun beynim dincəldi. Sağ olsunlar. Gözəl bir sənət əsəridir - deyə öyünə bilərik. Hərdən, ürəyim gəlməsə də, deyirəm, kaş Brilyantın da səsi o vaxtlar itəydi, bataydı, nə bilim, yoxa çıxaydı. Hər halda oxumağına əngəl olan nə isə olaydı. Bununla da sənətdə əbədilik qazanaydı. Bugünkü Brilyantın nə vaxtlarsa, çox-çox sonralar xatırlanacağına isə dəli bir şübhə var ürəyimdə.



Brilyant xanımın səhnə fəaliyyətini iki yerə bölsək - səhnəyə yenicə qədəm basdığı və indiki dövrlər deyə - ona populyarlıq qazandıran əvvəlki illərə məxsus sənət fəaliyyəti olub fikrində dayana bilərik. O mahnılarla indiki mahnılarını qarşı-qarşıya qoysaq, belə bir görüntü-nəticə alınar: duyumlu ifa - qocaman sıfır. Müğənni özü həmişə sənətdə irəli getdiyini, başqalarından xeyli öndə olduğunu, musiqini incəliklərinə qədər bildiyini vurğulayır. Düzdür, onun musiqi duyumuna və savadına, ecazkar səsinə söz ola bilməz. Oxuduğu yüngül, bir-iki həftədən artıq təsiri qalmayan, unudulan mahnıları isə bu səsin bütün yanğısını, gözəlliyini məhv edir. Hələ elə bir klipi də yoxdur ki, baxdıqca baxasan, doymayasan. Mən deyərdim ki, Brilyant xanım indi bir şeydə hamıdan irəlidir: çılpaqcasına səhnəyə və efirə çıxmaqda. Bu isə əsl sənət deyil. Ümumiyyətlə, sənət deyil. Nədirsə, özgə bir şeydir. Rəhmətlik **Rübabə Muradova** səhnəyə yamaqlı paltarda da çıxsaydı, biz onu dinləyəcəkdik (elə bircə yaratdığı Leyli obrazı onu dünya durduqca yaşadacaq). **Canəli Əkbərov** heç bir mahnı, muğam oxumasa da, klip çəkdirməsə də, peşəkarlığı ilə həmişə anılacaq (Məcnun obrazı ilə tamaşaçıların qəlbində elə bir taxt qurub ki, bu taxt öz şahanə duruşu ilə hər zaman məğrurluq simvolu olacaq). **Şövkət xanım Ələkbərova** sənətdə elə bir qızıl xətt qoyub ki, indi hamı o yolla irəliləməyə çalışır. **Alim Qasımov** on ildə bir köynək dəyişməsə də, biz onun ifasını səbirsizliklə gözləyəcəyik. **Oqtay Ağayev** də həmçinin, **Arif Babayev** də həmçinin. Onların səsi də, ifaları da gözəldir. Əbədilik qazanmaqsa gündə bir yarıq-yırtıq paltarda efirdə görünmək, məzmunsuz, qeyri-təbii kliplərlə camaatın zövqünü korlamaq demək deyil.



Bir kanalda müğənninin beş zənci ilə çəkdirdiyi nazla dolu klipi göstərilir, digər kanalda isə həmin müğənninin atası "qızımla fəxr edirəm" - deyir. Belə klipdən və atadan seyrçi nə zövq alacaq, yeniyetmə nə öyrənəcək? Belə musiqi görüntülərini seyr edəndə düşünürəm, görəsən, Azərbaycanda azərbaycanlı oğlanlar qırılıb-qurtarıbmı ki, yad oğlanlar artıq ekranlarımızda meydan sulayır?!



Klipdən söz düşmüşkən, qeyd etmək lazımdır ki, seyrçiyə zorla sırınan bədii cəhətdən primitiv kliplər TV-də geninə-boluna yayımlanmaqdadır. Kliplərin çoxunda rejissor-müəllif birliyi özünü qətiyyən doğrultmur. Sonda heç bir bədii yük daşımayan gerçəkliklə qarşılaşan izləyici Azərbaycanda klip yaradıcılığının nöqsanlı olduğu qənaətinə gəlir. Danmaq olmaz ki, sənətkarlıq, peşəkarlıq baxımından bitkin süjetli kliplər də çəkilir. Lakin bunlar çox azdır. Telekanallarda əsas yeri primitiv rejissor işi ilə başa vurulmuş, özlərini müğənni adlandıran bir para insanların əcaib-qəraib hərəkətlərindən ibarət klip adlanan biabırçı səhnələr tutur. Yadınızdadırsa, Ella adlı müğənninin bir vaxtlar "Səni unutmuşam" adlı mahnısına çəkilən klipi televiziyada tez-tez göstərilirdi. Azərbaycan dilində yaxşı danışa bilməyən, "səni unutmuşam" əvəzinə "səni xunutmuşam" deyən Ella əynində çimərlik paltarı klip boyu dənizə meydan oxuyurdu. Böyük səylə əndamını nümayiş etdirən bu xanım elə bilirdi ki, bu halda ekranda görünmək başqalarından daha çox tamaşaçı toplamaq deməkdir. Məhz belə səviyyəsiz, sənətdən xəbəri olmayan, gecənin bir aləmində yuxudan ayılıb, "bəlkə mən də bir klip çəkdirim, pulum ki var və ya verən var" düşüncəsilə ekrana can atan insanlar klip haqqında qeyri-dəqiq təəssürat, fikir yaradırlar. Bütün bunlar azmış kimi, kliplərində öz evlərini, maşınlarını, bağlarını, dəbdəbəli yaşayışlarını əhaliyə göstərməyə can atan bəzi müğənnilər seyrçidə psixoloji baxımdan nə qədər xoşagəlməz hisslər doğurduqlarını, yəqin ki, təsəvvür etmirlər. Çünki indiki vəziyyət hamıya cəh-cəlalla yaşamaq imkanı vermir. Adi insanların isə sənətçilərdən var-dövlət baxımından nə qədər aşağı olduqlarını görməsi heç bir etik və sənətkarlıq normalarına sığmır.

**İnkişaf dövlətin və xalqın rifahına xidmət edən amildir. Bütün sahələrdə tərəqqi isə o sahədə çalışanların birbaşa vicdanından asılıdır. Qoy bütün klip yaradıcılarımız, müğənnilərimiz, rejissorlarımız vicdanla çalışsınlar ki, gələcək nəsillər keçmişə boylananda incəsənət aləmində yalnız əsl sənətlə üzləşsinlər, eybəcərliklərlə yox!**



**Hazırladı:** *Xatirə Əsilbəyli*

# Xurşud banu Natəvan

*(1830-1897)*



Deyirlər, qızılgülün lap təzəcə çıxdığı vaxt bir nəfər kasıb Natəvana bir dəstə bağlayıb gətirir. Xan qızı ona təşəkkür etdikdən sonra yüz manat da bağışlayır. Kişi xanıma dua edir, xudahafizləşib getdikdən sonra ev darğası Natəvana deyir:

- Xanım, icazə versəniz, sizə bir söz demək istəyirəm.

- Eşidirəm.

- Xanım, o kişi bir dəstə qızılgül gətirdi, onu qiymətə vursaq, lap yuxarısı iki şahıdır. Bir dəstə gülə yüz manat verməniz məni həqiqətdə çox təəccübləndirdi. Səxavətin də bir sərhəddi var.

- Bizim yerlərdə gülü pulla ölçməzlər, bunu yaxşı bilirsən. O kişi ehtiyac içində boğulur. Gülü əlində bəhanə edərək mənim yanıma gəlib. Onu heç cürə əliboş yola salmaq olmazdı. Hər kasıbı sevindirəndə aldığım həzzin dərəcəsi ölçüyə gəlməz. Bunu yadında saxla.

**İndi kasıb sevindirməkdən yox, əlindəkini də qapazdamaqdan və istehza etməkdən həzz alırlar. Həm də necə…**

***

1883-cü ildə Natəvan oğlu ilə faytonda, yanında da atlılar Bərdədən Ağdama gedirlərmiş. Narlı dərə deyilən yerdə bir qarı onların qabağını kəsir və açdığı süfrəyə dəvət edir. Şairə qarının xahişini məmnuniyyətlə qəbul edir, bir-iki stəkan çay içib, təzə yuxa ilə pendir yedikdən sonra təşəkkürünü bildirib yola düşür. Atlılardan biri qarıya deyir:

- Qarı, xan qızı oturan döşəyin altına bax, Allah qismətini yetirdi.

Demə, Xurşud xanım kasıb, kimsəsiz qarıya yüz manat bəxşiş veribmiş.

**Gördünüzmü səxavət göstərmək necə olur? Nə dil bilir, nə dodaq. Nə də başa qaxınc eləmək yox.**

***

Xurşud xanım evində xüsusi həkim saxlamazmış. Lakin bir nəfər şəhərin görkəmli həkimi daima onların evinə gedib-gələrmiş. Bir dəfə xəstələnəndə həkim deyir:

- Xan qızı, qanınız azalıb, gərək çaxır içəsiniz.

Xan qızı Nəcəfül-Əşrəfə, məctəhidin yanına xüsusi adam göndərir ki, onun məsləhətini öyrənsin. Müctəhid də məsləhət görür ki, əgər şərabı kef üçün yox, müalicə üçün içirsə, bu, şəriətə zidd deyil, belə halda şərab dava-dərman hesab edilməlidir.

Bundan sonra o, şərab içir. Stəkanı dodaqlarına özü aparmaz, ev xidmətçilərindən biri çaxırı ona içirdərmiş. Sonra da ağzı təmiz olsun deyə suya çəkərmiş, tez də namaza oturarmış ki, "işlədiyi günah" paka çıxsın.

**Deyirəm, adam müsabiqə keçirsə, görəsən, belə bir xanım tapa bilərmi? Nə bilim, vallah, məncə, olsa da lap azcana olar. Lap elə çaşıb olsa da, belə bir məsləhəti almağa birisini tapa bilərmi-bilməzmi, elə bu da azcana çətindir.**

***

Qəza torpaq idarəsi rəisi Şuşada oturarmış. O, sox təkəbbürlü adam imiş. Bir gün yanından laqeydcəsinə keçən Məşədi Nəsir adlı bir nəfərin hərəkətindən qəzəblənir, əlindəki ağacla onu vurur. Kişi qorxusundan Xurşud xanımın imarəti səmtinə qaçır, yıxılır. Çar çinovniki onu təpiyi ilə döyür… Demə, bu mənzərəni Xurşud xanım görürmüş. O, cəld küçəyə çıxıb çar çinovnikinin üstünə cumur, ona bir-iki bərk sillə ilişdirir, sonra da əl atıb zərli paqonunu qoparır. Çinovnik Natəvana bir söz deməyə cürət etmir, şəhər hakiminə şikayətə gedir. Xurşud xanımın cəsarəti qarşısında özünü itirən şəhər hakimi deyir:

- Xurşud xanım, çinovniki vurmağa etiraz etmirəm, lakin paqonları qırmaq dövlətə hörmətsizlik kimi qiymətləndirilə bilər.

- Nə cür qiymətləndirirsiniz qiymətləndirin! - deyə şairə cavab verir.

**İndi hər hansı bir qadın, lap şöhrətli də olsa, belə hərəkət eliyə bilərmi? Yox! Çünki Ramana var, barmaqlıqlar var, baş qırxılmaq var. İrağ olsun!!!**

***

1880-ci ilin baharında Xurşud xanım pəncərə önündə əyləşib, şiddətlə yağan yağışa və gurultu ilə axan sellərə tamaşa edirmiş. Köçərilər mal-qara ilə arandan-yaylağa köçürmüşlər. Natəvan öküzün belinə alaçıq keçəsi və



*Şuşuda Natəvanın yaşadığı ev*

çubuqlarla bərabər iki körpə uşağın da örkənlə sarındığını görür. Onlar bərk islanmış, ağlayırmışlar. Şairənin ürəyi tab gətirmir. Tez adam göndərir, uşaqları və valideynlərini gətizdirir. Onlara olmazın yaxşılıq etdikdən sonra, uşağın birini onun yanında qoyub getmələrini xahiş edir:

- Uşağa öz balam kimi baxacam… İstədiyiniz vaxt uşağı gəlib görə bilərsiniz…

Razılaşırlar. Uşaq xan qızının evində xoşbəxt, qayğısız böyüyür. İllər keçir. Seyid Həsən adlı bu oğlanı çoxları Natəvanın oğulluğu yox, doğma oğlu hesab edirmiş.

**İndi də uşaq götürüb saxlayanlar var. Amma cürbəcür niyyətlərlə. Birisi gələcəkdə, özü əldən-dildən düşəndən sonra pul qazandırmaq, bir qeyrisi müxtəlif üsullarla para gətirmək üçün.**

***

Xurşud xanım şərq təbabətini gözəl bilir, bir çox xəstəlikləri özü türkəçarə ilə müalicə edirmiş. Qudurmuş it tutanlara belə müalicəsi varmış: parabüzən adlı cücünü (bu ən çox xımı otu üzərində gəzən, qırmızı və qara xallı kiçik cücüdür) kağıza və ya taxtaya sancıb qurudar, sonra həvəngdəstədə narın döydürərmiş. Xəstəyə dərmanın qədərini də özü təyin edərmiş. On gün xəstə yanında qalarmış. Sonuncu gun Xurşud xanım xəstə ilə üzbəüz oturar və qəfildən ona sillə vurarmış. Xəstə diksinsə imiş, deməli o, sağalıb, yox, diksinməsə imiş, müalicəni davam etdirərmiş.

***İndi Xurşud xanım sağ olsaydı, küçə itlərindən qorxumuz olmazdı. Heyf, çox heyf!***

# MUSA PEYĞƏMBƏR

*(onun haqqında ilk məlumat b. e. ə. XIII yüzillikdə verilib)*

**Ehtimal edilir ki, hələ tarixdə elə bir insan olmayıb ki, böyük qədim yəhudi peyğəmbəri Müsa (Moisey) kimi ümumi sevgiyə sahib olsun və zaman axarı ilə keçdikcə onun pərəstişkarlarının sayı ancaq artır.**

Musa peyğəmbərin b. e. ə. XIII əsrdə yaşadığı ehtimal olunur. O çağlarda II Ramzes (b. e. ə. 1237-ci ildə dünyadan köçüb) Misirin faraonu idi.

Öz zamanında Musanın peyğəmbərliyinə və dini ideyalarına inananlar çox az idi. 500 ildən sonra isə bütün yəhudilər ona sitayiş etməyə başladılar. Bizim eranın V əsrində isə şöhrəti xristianlığa bərabər oldu. Və görüşləri, demək olar ki, bütün Avropaya yayıldı. Daha yüz il keçdi və həzrəti Məhəmməd Musanı həqiqi peyğəmbər saydı. İslamın geniş yayılması ilə bütün müsəlman dünyasında (hətta Misirdə də) Musanın adı hörmətlə çəkilən ən müqəddəs şəxslərdən birinə çevrildi. Bu gün, 22 əsrdən sonra Musaya eyni dərəcədə həm yəhudilər, həm də xristian və müsəlmanlar sitayiş edirlər. O, hətta bir çox aqnostiklərin rəğbət bəslədiyi müqəddəs insanlardan biridir.



Lakin şöhrətinin bu qədər böyüklüyünə baxmayaraq, Musanın həyatı və fəaliyyəti haqqında inandırıcı məlumat zamanımıza çox az gəlib çatıb. Əksər tədqiqatçılar tərəfindən qəbul edilməyən belə bir fərziyyə mövcuddur ki, o, əslən misirlidir. Ona görə ki, adı yəhudidən çox Misir mənşəlidir. "Moisey" uşaq, ya da oğul mənasını verir. Bir çox məşhur Misir faraonlarının adlarının tərkib hissəsində də "moisey" kəlməsi işlənir.

Musa peyğəmbər haqqında "Tovrat"dakı əhvalatlara gəlincə, onları həqiqət kimi qəbul etmək mümkün deyil, çünki çoxsaylı möcüzələrlə əhatə olunub. Yanan kollar, eləcə də Musanın öz çomağını ilana çevirməsi fövqəltəbii hadisədir. Onun xilas etmək üçün yəhudiləri Misirdən çıxardıb 40 il səhrada ac-yalavac gəzdirib-dolaşdırmasına da inanmaq çətindir. Əlbəttə, bu gün hamı istəyir ki, peyğəmbərlər barədə həqiqəti öyrənsin. Görəsən, Musa əslində nə işlə məşğul olub? Təəssuf ki, onun gerçək tərcümeyi-halı əfsanələrin burulğanında itib-batıb. Doğrudur, çoxları "Tovrat"dakı əhvalatları real tarixi hadisələrlə əlaqələndirməyə çalışır, Qırmızı dənizi aşmaq, misirlilərin onlarla edamları haqqında müqəddəs kitabda yazılanlara inam oyatmaqdan ötrü dəridən-qabıqdan çıxırlar. Məlum məsələdir ki, "Tovrat"dakı Musa ilə bağlı əhvalatların hamısı əfsanəvi xarakterdədir. Başqa mifoloji sistemlərdə analoji əhvalatlara təsadüf edilməsi də onların reallıqdan uzaqlığını təsdiqləyir. Məsələn, Musa və qamışla bağlı yazılanlar Babilistanda e. ə. 2369-2305-ci illərdə hökmranlıq etmiş akkatlı böyük padşah Sarqonun başına gəldiyi ehtimal edilən süjetlərlə üst-üstə düşür.



Bəşəriyyət üçün vacib sayılan üç əsas nailiyyət prinsip etibarilə Musanın adına yazılıb.

***Birincisi,*** guya o, bir siyasi xadim kimi genosidə uğrayan yəhudilərin Misir qırğınından qurtarmasına rəhbərlik edib. Hər halda bu işdə Musanın rolu olduğu üzə çıxır.

***İkincisi,*** o, "Tovrat"dakı 5 kitabın (Varlıq, Sonluq, Levit, Say, İkinci Qanunlaşma) müəllifi sayılır. "Moiseyin 5 kitabı" əslində yəhudilərin "Bibliya"sıdır və "Tora" adlanır. Bu kitablar özündə Musanın qanunlarını, on vəsiyyətini və yəhudilərin davranış qaydalarını əks etdirir. Əksər tədqiqatçılar qənaətə gəliblər ki, kitabların müəllifi Musa meyğəmbərdir. Ola bilsin ki, o, özündən əvvəlki qədim yəhudi adətlərini, dini görüşləri, qanunları sistemləşdirib. Lakin kitabdakı ideyalar o qədər mütərəqqidir ki, həmin qənaətlə Musaya pərəstiş edənlərin qəlbi qırılır.

***Üçüncüsü,*** Moisey yəhudi monoteizminin banisidir. Onun haqqında yeganə mənbə "Tovrat" olduğuna görə bu qənaəti təsdiqləməyə əldə heç bir əsas yoxdur. Çünki müqəddəs kitabda aydın və birmənalı şəkildə vurğulanır ki, təkallahlığa inam ideyasını ilk irəli sürən fədakar insan İbrahimdir (Avraam). Beləcə, yəhudilərin inancında Moisey monoteizmi insanların şüurunda təsdiqlədən peyğəmbərdir. Bu sahədə göstərdiyi şücaət sonralar Musanın iki böyük dünya dinində - xristianlıq və islamda da özünə xüsusi yer alıb.

**Musa peyğəmbər həqiqi tək Allah ideyasını ehtirasla yayırmış. Və insanları buna inandırmaq üçün hər an həyatını qurban verməyə hazır imiş. Məhz təkallahlıq ideyası iki min ildən çox dövrdə onun adını dünyanın yarıdan çoxunda müqəddəsləşdirib.**

***(Maykl X.Xarta istinad edilib)***

**Hazırladı:** ***Təbib Əliyev***

**ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33**



# SƏKKİZ İL ƏVVƏL QƏTLƏ YETİRİLMİŞ ƏSGƏR

1977-ci il təvəllüdlü Zaur Kamal oğlu Şirinov 1995-ci ildə Şəki rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılır. Tərtərdəki N saylı hərbi hissədə qulluq edən əsgər xidmətini başa vurmasına üç ay qalmış - 1996-cı il may ayının 30-dan 31-nə keçən gecə hərbi hissədən müəmmalı şəkildə yoxa çıxır. Onun ailəsinə bu barədə 12 gündən sonra məlumat verilir. Belə ki, hərbi hissədən Şəki şəhərinə - Zaurun bacısının yaşadığı ünvana gələn bir nəfər zabit onlara bildirir ki, Zaur bir həftəliyə evə buraxılıb. Ancaq müddət bitsə də, hərbi hissəyə qayıtmayıb. İki gün sonra əsgərin yaxınları məsələnin nə yerdə olduğunu öyrənmək məqsədilə hərbi hissəyə yollanırlar. Ancaq hərbi hissənin tabor komandiri onlara bildirir ki, Zaur hərbi hissəni özbaşına tərk edərək bir daha geri qayıtmayıb. Valideynlər Tərtər rayon Prokurorluğuna gedərək, əsgər övladlarının itkin düşməsi barədə ərizə yazırlar. Sonrakı günlər övladlarının taleyi ilə maraqlanmaq üçün dəfələrlə hərbi hissəyə gəlsələr də, hissə komandirinin göstərişi ilə onları hərbi hissənin həyətinə belə yaxın buraxmırlar. Hər dəfə valideynlərə bildirilir ki, Zaur hissəni özbaşına tərk etdiyinə görə barəsində cinayət işi qaldırılıb. Həmin vaxtdan bəri (bu işin üstü açılana qədər) ölkə başçısının amnistiya haqqında imzaladığı fərmanlardan sonra hər dəfə Zaur Şirinovun ailəsinə rəsmi teleqramlar vurularaq amnistiya aktının ona da şamil edildiyi bildirilir. Bu teleqramlar əsgərin ailəsinə sarsıntıdan başqa bir şey gətirmir. Çünki istintaq orqanlarının əsgərin hərbi xidmətdən yayındığını hesab edərək ona "fərari" damğası vurması ailəyə olduqca pis təsir bağışlayır. Övladlarının itkin düşməsi ilə bağlı Şirinovların döymədiyi qapı qalmır. İş bir neçə dəfə təzələnsə də, istintaq orqanları ortalığa bir şey çıxara bilmirlər. Bu müddət ərzində (üç il əvvəl) yalnız qapılar döyən, ancaq oğlundan bir soraq ala bilməyən Kamal Şirinov da dünyasını dəyişir. Hadisədən sonra Zaurun taleyini sona qədər araşdırmağı əmisi Nicat Şirinov üzərinə götürür. Onun sonuncu dəfə Respublika Prokurorluğuna yazdığı ərizə öz işini görür. Belə ki, Tərtər rayon Prokurorluğuna yeni təyin edilmiş prokuror Zaur Şirinovun məsələsiylə maraqlanır. İşin icraatına verildiyi müstəntiqlə söhbət zamanı sonuncu bildirir ki, iki il əvvəl Qazyan kənd sakini, keçmiş deputat Sarı İsmayılovun oğlu Rizvan həyat yoldaşından ayrılıb və evdən çıxarkən qışqıra-qışqıra ailə üzvlərini adam öldürməkdə günahlandırıb. Qonşular da bunu eşidib. Sonradan bu söz-söhbət bütün Qazyan kəndinə yayılıb. Ancaq gəlinin ailə üzvlərini konkret kimi öldürdüklərinə görə hədələməsi qaranlıq qalıb. Müstəntiqlə prokurorun bu söhbətindən sonra gəlinin keçmiş həyat yoldaşı Rizvan İsmayılov rayon prokurorluğuna dəvət edilib. Müstəntiqin otağına daxil olduqdan sonra vətəndaşa verilən ilk və gözlənilməz sual bu olub: "Keçmiş həyat yoldaşın gəlmişdi, səndən şikayət edirdi, artıq hər şey bizə məlumdur, necə oldu ki, öldürdün?" Qəfil sualdan çaşan Rizvan İsmayılovsa "vallah, mənlik deyil, atam öldürüb" deyə cavab verir. Bununla da hər şey açılır. Rizvanın atası Sarı İsmayılovla yanaşı, digər ailə üzvləri də prokurorluğa çağırılırlar. Elə həmin gün İsmayılovların yaşadığı həyətdəki üstü torpaqla doldurulmuş quyudan insan skeletinin qalıqları, əsgər geyimi çıxarılır. Sarı İsmayılov həmin skeletin səkkiz il əvvəl ov tüfəngi ilə öldürdüyü tanımadığı əsgərə məxsus olduğunu etiraf edir. Tərtər rayon Prokurorluğunda başlanmış istintaq Zaur Şirinovun xidmət göstərdiyi hərbi hissənin keçmiş əsgərləri, zabitləri, tabor və manqa komandirləri də cəlb edilir. Məlum olur ki, sən demə, əsgərin səkkiz il əvvəl qətlə yetirilməsindən hamı xəbərdar imiş. Sadəcə olaraq, "susmaq qızıldır" prinsipi daha məqsədəuyğun hesab edilib və hamı 2004-cü ilin avqustuna - istintaqa çağırılana qədər bu prinsipə əməl edib. İstintaq zamanı ortalığa çıxan dəhşətli həqiqətlərdən biri də bu olur ki, həyətdəki quyuda əsgəri "dəfn edən" ailə üzvləri üç aydan sonra elə həmin həyətdə mağar quraraq Rizvan üçün toy çaldırırlar. Tərtər rayon Prokurorluğunda ibtidai istintaq yekunlaşdıqdan sonra iş materialları Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəməyə göndərilir və hakim Əlisultan Osmanovun icraatına verilir.



Məhkəmədə zərərçəkən qismində ifadə verən Almarə Şirinova (əsgərin anası) ibtidai istintaq zamanı övladının qətli ilə bağlı əsl səbəblərin üzə çıxarılmamasından şikayətlənib. Qadın hesab edib ki, müttəhimlər kürsüsündə Sarı İsmayılovla yanaşı daha bir neçə şəxs də oturmalı idi. Bu şəxslər ötən 8 il ərzində oğlunun qətlini gizlətmiş tabor komandiri, manqa komandiri, təqsirləndirilən şəxsin oğlu Rizvan İsmayılov və hadisəni bilib gizlətmiş digər əsgər yoldaşlarıdır.

Həmin əsgər yoldaşlarından biri, hadisənin şahidi olmuş Aqil Məmmədov məhkəmə ifadəsində söyləyib ki, Zaurla eyni taborda xidmət göstərib. 1996-cı il may ayının 30-dan 31-nə keçən gecə eyni postda döyüş növbəsində olublar. Gecə saat 2 radələrində postu təhvil verərək blindaja qayıdıblar. Əsgərlər öz aralarında belə qərara gəliblər ki, Qazyandakı həyətyanı bağ sahələrindən birinə gedərək tərəvəz yığsınlar. Fikirlərini manqa komandirinə bildirərkən sonuncu əsgərlərə icazə verib. Hər iki əsgər xidməti istifadələrində olan silahları manqa komandirinə tapşıraraq blindajı yenidən tərk edib. Şahid ifadəsində göstərib ki, Zaur tanımadıqları həyətyanı bağ sahələrindən birinə girib, o isə siqaret almaq məqsədilə həmin ərazinin yaxınlığında yaşayan Seyid ləqəbli bir nəfərin evinə tərəf gedib. Ancaq it hürüşməsi eşitdiyindən geri qayıtmalı olub. Bu vaxt Zaurun girmək istədiyi həyətdən iki nəfərin çıxdığını görüb. Bundan qorxuya düşən əsgər qaçaraq taxıl sahəsinə girib və orada gizlənib. Sonra həmin iki nəfərdən biri irəlidə qaçan Zaura tərəf ov tüfəngindən atəş açıb. Bunun ardınca Zaur yerə yıxılıb. Həmin iki nəfər dərhal Zaura yaxınlaşıb əl-ayağından yapışıblar və həyətə aparıblar. Sonra əsgər həyətdən qarışıq səslər eşidib və bir neçə nəfərin danışığından başa düşüb ki, Zaur ölüb, onun meyitini quyda gizlətməyi müzakirə edirlər. Təxminən bir saata yaxın gizləndiyi yerdə qalan əsgər aranın sakitləşdiyini hiss etdikdən sonra taxıl sahəsindən çıxıb və blindaja tərəf qaçıb. Baş vermiş hadisə barədə manqa komandiri Mübariz Hacıyevə məlumat verib. Hər ikisi belə qərara alıblar ki, hadisə barədə sussunlar.

Növbəti ifadə isə həmin gecə əsgərlə manqa komandirinin gizli söhbətini eşitmiş digər əsgər Daşqın Quliyevə məxsusdur. Daşqın Quliyev ifadəsində göstərib ki, may ayının 30-dan 31-nə keçən gecə Aqil blindaja qayıdıb və manqa komandirinə Zaurun öldürüldüyünü söyləyib. O da təsadüfən bu söhbəti eşidib. Ancaq 8 il bu barədə ərzində kiminsə yanında danışmaqdan ehtiyat edib.

Şahid kimi dindirilmiş manqa komandiri Mübariz Hacıyev də etiraf edib ki, əsgərin qətlə yetirildiyini elə həmin gecə bilib. Zaurla Aqil ondan icazə istəyərək bağ sahələrindən tərəvəz gətirməyə yollanıblar. Təxminən bir saatdan sonra Aqil Məmmədov geri qayıdaraq Zaur Şirinovun həyətlərdən birindən çıxıb qaçarkən həyət sahibi tərəfindən ov tüfəngi ilə vurulduğunu, sonra isə meyitinin həyətə aparılaraq quyuya atıldığını söyləyib. Ancaq onlar hadisəni açıb-ağartmaqdan qorxublar.

Təqsirləndirilən şəxsin oğlu Rizvan İsmayılov ibtidai istintaqa ifadə versə də, məhkəmədə ifadə verməkdən imtina etdi. İbtidai istintaqdakı ifadəsində isə qeyd olunur ki, yuxarıda qeyd olunan tarixdə onlara məxsus olan həyətyanı bağ sahəsinə iki nəfər girib. Atası Sarı İsmayılov qoşalülə ov tüfəngini götürərək səsə həyətə çıxıb. O da nə baş verdiyini bilmək üçün atasının arxasınca gedib. Ev sahiblərini görən şəxslər çöl qapısından çıxaraq qaçmağa başlayıblar. Sarı İsmayılov da küçəyə çıxaraq qaçanların arxasınca atəş açıb. Bu zaman onlardan biri yerə yıxılıb, digəri isə hadisə yerindən qaçıb. Atayla oğul yıxılana tərəf gələndə onun əsgər olduğunu görüblər. O, atasından nəyə görə atəş açdığını soruşub. Atası isə deyib ki, atəşi bilərəkdən açmayıb, əlindən çıxıb. Sonra atası meyiti götürərək həyətə aparıb və orada suyu qurumuş quyuya ataraq üstünü doldurub. Rizvan İsmayılov ifadəsində bu işdə atasına köməklik etmədiyini bildirib.

Təqsirləndirilən şəxs Sarı İsmayılov isə həm ibtidai, həm də məhkəmə istintaqında özünü, ümumiyyətlə, təqsirli bilməyib və bu cür ifadə verib. Guya həmin gecə evdə tək olub. İtlərin hürüşməsinə eyvana çıxıb. Sonra ov tüfəngi ilə qaranlığa tərəf atəş açıb. Bunun ardınca isə quyu tərəfdən şappıltı səsi eşidib. Ancaq quyuya düşənin nə olduğunu bilməkdən ötrü qorxduğundan ora getməyib. Sonra da quyunun üstünü zir-zibil örtüb və orada meyit olmasından xəbər tutmayıb. Ancaq müttəhimin ifadəsi qeyri-səmimi və özünü müdafiə xarakterli hesab edilib. Çünki məlum olduğu kimi, meyit quyuya polietilenə bükülmüş vəziyyətdə atılıb.

Zərərçəkən Almarə Şirinova ifadəsində yaxın qohumları ilə birlikdə övladını günlərlə meşələrdə axtarmasından danışıb. Belə bir vaxtda hərbi hissə komandirlərinin əsgəri hərbi xidmətdən yayınmaqda günahlandırmaları və barəsində cinayət işi açılması üçün rayon Prokurorluğuna müraciət etmələri əsgər ailəsini təsirləndirib. "Onlar yaxşı bilirdilər ki, əsgər öldürülüb, meyiti də quyuda gizlədilib. Ancaq özlərini məsuliyyətdən qurtarmaq üçün deyirdilər ki, xidmətdən yayınıb, fəraridir. Onsuz da Zaurun əsgəri xidmətini başa vurmasına 3 ay qalmışdı, nəyə görə xidmətdən yayınmalıydı, əgər onun belə bir məqsədi olsaydı elə xidmətdə olduğu 1 il 3 ay ərzində qaçardı. Mənim oğlumun qatili təkcə bu deyil.

**Bu yaxınlarda barəsində söz açdığımız cinayət işi üzrə məhkəmə baxışı yekunlaşıb. Məhkəmənin hökmüylə 67 yaşlı Sarı İsmayılov 11 il müddətinə azadlıqdan məhrum edilib.**





Hazırladı: *İsrail*




# YEL ƏSMƏYİNCƏ YARPAQ TƏRPƏNMƏZ

**Dünyanın yaranmasında iştirak edən sonuncu ünsür havadır. Azərbaycan xalqının yazqabağı mərasimlərində Yel çərşənbəsi adı ilə qeyd olunur. Odla birlikdə yel də mənəvi-ruhi (kişi) başlanğıc hesab edilir və maddi (qadın) başlanğıc - torpağa, suya əks cəbhədə durur. Canlılara nəfəs verməklə öz hərəkətliyini, dinamikliyini onlara keçirir.**

**Başqa sözlə, cansız torpağı və suyu durğunluqdan çıxarır. Məhz bu xüsusiyyətinə görə yel ruhla eyniləşdirilir. Ümumiyyətlə, dünyanın mənəvi, ruhi tərəfləri kişilərlə, maddi, əşyavi tərəfləri isə qadınlarla ələqələndirilir. Lakin od və hava işə qarışmasa, maddi, əşyavi tərəf əbədi dəyişməz qalar, sular coşub-daşmaz, dalğalanmaz, torpaqlar vulkana çevrilib püskürməz, atalar sözündə qeyd edildiyi kimi, *"Yel olmasa, sel olmaz". "Yel gətirib, gün qurudub". "Yel eləyəni fələk eləyə bilməz". "Yel üfürüb şişirtdiyini göyə qaldırar". "Yel əsməyincə, çöp tərpənməz".***

**Dünya xalqlarının kosmoqonik mif sistemlərində hava mifik zamanın başladığı nöqtədə baş allahdır. Məsələn, qədim Misirdə hava allahı Şu göyü və yeri məğlub edir, bütün aləmi ələ alıb canlıları yaradır. Hindistanda Brahm nəfəsini bayıra buraxanda dünya yaranır, içəri alanda məhv olur. Çinlilərin təsəvvüründə isə göyün qapılarının açılıb-bağlanması ilə həyat-ölüm hadisələri baş verir. Müsəlman miflərində İsa nəfəsi ilə ölüləri dirildir, ona Məsih (nəfəs verən) deyilməsi bununla bağlıdır. "Munisnamə"yə görə, Azərbaycanda lap qədimlərdə dünya hava və sularının hamisi bir məxluqun timsalında təqdim edilir: *bir əlini yerə dirəyən, digərini isə göyə dikən Səhayıl (qədim külək tanrısı Səbayel bəlkə də bu inancdan yaranmışdır) dəniz suyunun və küləklərin qoruyucusudur*. Havanın himayəçisi və tənzimləyicisi Səhayıl göyə yüksələn əli ilə sərt küləklərin, qasırğanın, yerə dikilən əli iləsə coşub-daşan dəniz sularının qarşısını alır. Əgər Səhayıl sol əlini yerdən götürsə, dəniz suyu kükrəyib bütün çölləri, düzləri basar, insanlar suya qərq olar, boğulub ölər, sağ əlini aşağı salsa, tufan, qasırğa qopar, dünya üzünü silib aparar, canlı varlıqlardan əsər-əlamət qalmaz. Səhayıl ikili xüsusiyyətə malikdir. Bir varlıqda həm kişiyə, həm də qadına xas xüsusiyyətlərin cəmləşməsinə atəşpərəstlikdə də rast gəlirik. Xeyir və Şər allahlarını bətnində bəsləyən tale və zaman tanrısı Zirvan həm kişi, həm də qadın idi.**



Qeyd etmişdik ki, yunan mifologiyasında əsasən üç külək - **Zefir, Borey** və ***Not*** dünyanın, eləcə də onun ayrı-ayrı elementlərinin yaranmasında fəal iştirak edir, cansız varlıqlara can verir, bəzən fəlakətlərin törədicisinə çevrilir, bəzən də, sadəcə olaraq, insanlara bəlalı xəbərlər gətirməklə kifayətlənir. Bu mifik küləklərin ən xeyirlisi qərb ölkəsi Qasperidən əsən ölümə məhkum Zefirdir ki, özü ilə isti yağışlar gətirib torpağın üstünə səpir, bitkiləri yuxudan oyadır, təbiəti canlandırır. O, soyuq qəlbli Boreydən və quru Notdan incik düşmüşdü, çünki uşaqlıqda onlardan çoxlu əzab-əziyyət görmüşdü. Xatırladaq ki, dəlisov xasiyyətli Borey (ruslarda "burya", bizdə isə "boğanaq" adlanır, hər iki sözün "Borey"lə qohumluğu göz qabağındadır) yunanların təsəvvüründə ölü qızları çox sevir, onları həyasızcasına qaçırır və heç vaxt "oğurluq üstə" ələ keçmir". Əski Şərq mifoloji sistemində isə dünyanın dörd tərəfində (aşağı, yuxarı, sağ, sol) yaşayan dörd külək (Qərb, Şərq, Cənub, Şimal) mövcuddur. Onların ikisi mülayim xasiyyətli (Cənub və Şərq küləklərii), ikisi isə sərtdir (Şimal və Qərb küləklərii).

**Maraqlıdır ki, "Yel baba" ritual nəğməsində də can üstə olan gənc qız sanki son nəfəsində üzünü küləyə tutur, ölüm xəbərini anasına aparmağı xahiş eldir. Ola bilsin ki, ilkin inanclarda Yel baba məhz dünyanın ayrı-ayrı elementləri arasında rabitə yaradan vasitə hesab edilib.**

# YEL ÇƏRŞƏNBƏSİ



Yel Azərbaycan mifik təfəkküründə yolgöstərən, bələdçi rolunu da yerinə yetirir. Yel Baba (əksər hallarda əldən-ayaqdan düşmüş qoca sifətində peyda olur) qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və yumağı yerə atıb diyirlətməyi tələb edir. Yel Babanın üfürməsi ilə yumaq açılır və azmışları mənzil başına çatdırır. Yel Baba haqqındakı bu təsəvvür sonralar Fatma nənənin yumağı şəklində nağıllara keçmişdir.

Azərbaycanlıların ən əski təsəvvürlərinə görə, Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürməzlər. Sovrulmamış buğda götürənin oğlu ölər. Xırman sovrulandan sonra ilk buğda götürənin isə oğlu olar. Ulularımız deyirlər ki, **"Yel əsdirəni söyməzlər"**. Çünki onun arxasında Baş Ruh durur. Yelə tüpürsən, öz üstünə qayıdar. Eləcə də Yel dağına ziyarət edirlər. Adamlar ürəklərində dilək tutub nəzir-niyaz gətirir, qurban kəsirlər. Yel Baba kimin nəzirini, qurbanını qəbul etsə, o adam xeyir tapar, arzusuna çatar. Bir inanışda isə deyilir ki, "Yel çərşənbəsi girən gün söyüd ağacının altına gedib niyyət elə və Yel Babanı çağır. Əgər Yel baba sənin səsini eşidib söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər".

Göründüyü kimi, Azərbaycan türklərinin mifoloji düşüncəsinin qaynaqları öz kökləri etibarilə tarixin çox dərin qatlarına bağlanır. Onların izlərini gen yaddaşından adət-ənənələrə, rituallara, qədim bayramlara, folklor örnəklərinə, klassik ədəbiyyata, ümumiyyətlə, mədəniyyət formalarına qatmaqla unudulmağa qoymamışlar. Ulu Türkün övladları Dünyamızın Altaydan Qara dənizədək uzanan torpaqlarında, miflərin dili ilə desək, Gündoğandan başlayıb Günbatanda bitən ərazilərdə məskunlaşaraq kökdən gələn mənəvi amilləri öz yolları ilə yaşatdıqları kimi, sak-hun-oğuz birliyinin təmsilçiləri azərbaycanlılar da həmin mənəvi sərvətin bir hissəsinin yaradıcıları olmaqla yanaşı, ümumi qazandan götürdüklərini özününkülərə qatıb duyğularına, istəklərinə dayaq edə-edə bu günümüzə çatdırmışlar.

## MƏNİM ÖLÜM XƏBƏRİM ANAMA DESİN YELLƏR

*Səhərdən əsən yellər,*
*Kəndirim kəsən yellər.*
*Mənim ölüm xəbərim*
*Anama desin yellər!*





## QIZLARIN KÜLƏYƏ ƏRƏ GETMƏK İSTƏYİ

"Azərbaycan folkloru antalogiyası" toplusunda yuxarıda deyilənlərlə səsləşən



olduqca maraqlı bir faktla rastlaşırıq: "Taxıl döyümü vaxtı boğanaq qalxarsa, qızlar: **"Boğanaq, gəlmə, sənə gedəcəyəm"** - deyirlər.

Azərbaycan inancındakı qızların boğanağa ərə getmək istəyi və "Yel baba" mərasim nəğməsinin "Mənim ölüm xəbərim Anama desin yellər" misraları ilə Boreyin ölü qızları qaçırması arasında əlaqə göz qabağındadır. Lakin yunan miflərindən fərqli olaraq, Azərbaycan inancında qızlar sağ ikən özləri könüllü surətdə sərt küləyə ərə gedəcəklərini vəd edirlər. Bununla da onun könlünü oxşayıb, arzusunun yerinə yetirilməsinə ümid yaradırlar və taxıl döyümündə şiddətlə əsməsinin qarşısını alırlar. Başqa sözlə, nəğməni eşidəndən sonra Boğanağa - Boreyə qızların ölməyini gözləmək və oğurluq etmək lazım gəlmir, çünki taxıl döyülüb qurtaran kimi onları öz xoşları ilə qoynuna alıb istədiyi yerə apara biləcək.

## YEL BABA MƏRASİMİ

Xırmanda dəni samandan ayırmaq vaxtı gələndə camaaat Yel babanı çağırıb deyir:

- Yel baba, gəl, ağ atına arpa, saman apar!

Bəzi yerlərdə ona nəğmə ilə də müraciət edirlər:

*A Yel baba, Yel baba,*
*Tez gəl, baba, gəl, baba.*
*Sovur bizim xırmanı,*
*Atına ver samanı.*
*Dən yığılıb dağ olsun.*
*Yel babamız sağ olsun.*

*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı.*
*A Yel baba, Yel baba,*
*Tez gəl, baba, gəl, baba.*

*Sovur bizim xırmanı,*
*Atına ver samanı.*
*Dən yığılıb dağ olsun.*
*Yel babamız sağ olsun.*

Əcdadlarımızın əski inamına görə, bu çağırışdan sonra Yel baba gəlib xırmanı sovurar, samanı aparıb öz atına verər, təmizlənmiş dən isə adamlara qalardı.

Xırman sovrulub, taxıl döyülüb qurtarandan sonra oxuyardılar:

*Xırmanda şana qaldı,*
*Yel əsdi, xana qaldı.*
*Xırmana bir qız gəldi,*
*Saçı nişana qaldı.*

**Yel üfürüb şişirtdiyini göyə qaldırar.**

**Yelin zarafatı qovmaqla başlayır.**

**Yelə verdiyin düşmənə qismət olar.**

**Yelin işi elnən deyil, külnəndi.**

**Yel olmasa, sel də olmaz.**

**Yelə qoşulan çox uzağa getməz.**

**Yeldən aman diləməzlər.**

## AŞIQ ƏLƏSGƏR



## ATALAR DEYİB Kİ...

**Yel aparan yelinki,**
**Yerdə qalan mənimki.**

**Yelə tüpürsən, öz üstünə gələr.**

**Yel qayadan nə aparar?**

**Yelnən gələn selnən gedər,**
**Elnən gələn külnən gedər.**

**Yel aparsa, sənə nə qalar?**

**Yelə dedilər: - Əsmə!**
**Dedi: - Kələyimi kəsmə.**




## SAZ-SÖZ BAYRAMI

Yalnız türkə məxsus bədii söz və musiqi yaradıcısı aşıq Azərbaycan xalqının köynəyindən çıxıb və sənətkarlardan birincisidir ki, elinin, obasının qədim ənənələrdən gələn örnəklərini özündə yaşadır, iliyinə qədər şifahi epik, lirik yaradıcılığa, adətlərə, ayinlərə, insanların məişət tərzinə, ruhuna bağlı olur. Haqq yolunun yolçusu kimi aşıq düzüb-qoşduqları ilə fərdiləşsə də, yaratdıqlarının mayasını folklordan alır, xəmirini el sözlərindən yoğurur. İstər bədahətən lirik şerlər oxusun, istərsə də epik dastanlar söyləsin, bütün əsərlərinin strukturunun özəyini şifahi el sənətinin sabitləşmiş modelləri təşkil edir. Aşığın fərdi yaradıcılıq emalatxanasında istehsal olunan söz sənəti inciləri xalqın zəngin poetik düşüncəsinin hazır qəliblərindən, ilkin dünyagörüşlərinin mədəniyyət faktoru tək təsdiqlənən elementlərindən qurulur. Ona görə də xalq ruhunun, xalq təfəkkürünün bütün atributları saz-söz ustalarının fərdi yaradıcılığında öz əksini tapır. Bu mənada aşıq Azərbaycan folklorunun canlı yaradıcısı və daşıyıcısıdır. O, elə bir gücə və istedada malikdir ki, min illər ərzində Azərbaycan türkünün şüurunda baş verən prosesləri fəhm yolu ilə ümumiləşdirib, yaşadığı dövrün tələbinə uyğun şəkildə yenidən ərsəyə gətirir. Və onun haqq aşıqlığı statusuna yiyələnməsi üçün ilahi aləmin sakinindən buta alması motivi təsadüfi meydana gəlməmişdir. Çünki üzərinə götürdüyü missiya elə ağır və əhatəli idi ki, fövqəltəbiilikdən kənarda, adi halda yerinə yetirdiyini etiraf etsəydi, inanılmazdı. Bəs böyük yol keçmiş sənətdə aşıq Ələsgər hansı funksiyanı daşıyıb?

**Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Xəmsə" İstirahət Mərkəzi, jurnal və qəzeti ilə birlikdə dahi söz ustadının anadan olduğu gün - mart ayının 25-də keçirəcəyi saz-söz bayramında məhz bu sorğuya cavab veriləcək. Sənətsevərləri həmin bayramda iştirak etməyə çağırırıq.**

*Ramazan QAFARLI*

TELEVİZİYA PROQRAMI

## Dördlüklər



"Mənəm-mənəm"
demə, insan,
Yaradanı düşün barı.
O zirvədən enmə, insan,
Saxla şərəf, etibarı.

Nəyim vardır, nəyim yoxdur,
Bu sualı eldən soruş.
Sərvətim bol, nəfsim toxdur,
Məni bahar, güldən soruş.

Məhəbbəti iri yazın,
Çünki onun hikməti var.
Şəhla gözdən ulduz düzün,
Onun şair qiyməti var.

Şer nemət, bir də hikmət,
Budur şerin ali yolu.
Ana, övlad və məmləkət,
Xan Arazdır sağım-solum.

*Adəm İzzətoğlu*

## Unuda bilmirəm səni



Ömür yollarında
versək əl-ələ,
Səndən ayrılmaram
ölsəm də belə.
Sevən ürəyimdə
yaşayır hələ,
Sənli günlərimin dumanı-çəni.
Sevgilim, unuda bilmirəm səni!

O qədər ah çəkdim, qəlbim oldu qan,
Varmı dərdə çarə bu göz yaşından?
Həsrət payızından, hicran qışından,
Solur eşqimizin yaşıl çəməni.
Sevgilim, unuda bilmirəm səni!

*Yasin Bağırov*

## Ürəyi olsun

Mən elə bir oğul böyüdürəm ki,
Onun xoş arzusu, diləyi olsun.
Zəhmətlə yoğrulsun onun mayası,
Halalca neməti, çörəyi olsun.

Sevsin övladını, sevsin yarını,
Məhəbbətlə dolu ürəyi olsun.
Sevsin anasını, sevsin vətəni,
Dar gündə vətənin gərəyi olsun.

*Eldar Bədbin Beyləqanlı*

## İtirdin özünü

Həqiqətə yalan don geydirərək,
De, nədən gizlətdin sən surətini?
Neyçün daşa döndü köksündə ürək,
Sən əlindən verdin öz qismətini?

Etiraf edərək "suçluyam" dedin,
Əzablar içində qovruldun hər an.
Sən öz sevincinə kədər gətirdin,
İtirdin özünü tapdığın zaman.

Bəsdir sən döyüşdün özün-özünlə,
Bəsdir sən bəxtindən etdin şikayət.
Qayıt, bir özünə bax öz gözünlə,
O vaxt qaranlıqdan çıxarsan, əlbət.

Aç gül hüsnündəki qara pərdəni,
Göylərə qaldırsın şöhrətin səni.

*Ədalət Həşimov*

## Səni xatırlayarkən



Gözlərim axtarır hər
zaman səni,
Mən necə unudum
keçən günləri?!
Hərdənbir ağlayıb
xatırla məni,
Mən də unutmaram heç zaman səni.

Bəxtimə yazılıb, iz salır dərin,
Sağalmaz illərin vurduğu yara.
Körpəcə balamız böyüyür yəqin,
Atadan yetimdir, atasız bala.

Bilmirəm dəyişməz hökmü taleyin,
Yoldaşı hicrandır sevən hər kəsin.
Qəflətən yox olub çıxıb getməyin,
Batırdı bəxtimin üzən gəmisin.

Qayıtsan gec olar, gecikər illər,
Keçmişə üz tutub qayıdaq gərək.
Bir daha keçmişdən qayıtmaz illər,
Yenidən doğulub yaşamaq gərək.

*Elçin Ağayev*

## Acı xatirə



Mən sənin çöhrənlə
rastlaşdım yenə,
Yaxınlaşıb nəsə
demədim sənə.
Yəni çox sevirdim,
dünyalar qədər.
Aprelin on biri aydınlı
səhər.
Sənə nəyə görə yaxınlaşmadım?
Risk edib nəyçünsə mən
çalışmadım.
O gözəl çöhrənlə dənizə baxdım,
Deyəsən bilmədim, yəqin ağladım.
Nəyçünsə özünü ələ alırsan,
Sən yenə bəlkə də çox ağlayırsan.
Mən də sənin kimi bura gəlmişəm,
Dənizdən sevgini mən öyrənmişəm.
Dəniz hörmətlidir, sədaqətlidir,
İnsanlara qarşı mərhəmətlidir.
Sən bura gəlməkdə düz eləmisən,
Mən burda olacam bəlkə bilmisən.
Bir daha sevginə mən aldanmaram,
Mən səni sevsəm də
yaxınlaşmaram.
Dənizi sevirsən, çox səfalıdır,
O ağlayan sifət çox mənalıdır.
Mən səni sevirəm, səni bilmirəm,
Bu sakit dənizi məni dinləyirəm.
Hərdən görürsən ki, nədənsə coşur,
Zehnim, fikirlərim yenə qarışır.
Aparır xəyala məni bu dəniz,
Oluram yenidən mən də kimsəsiz.
Mən xeyli onunla söhbətləşirəm,
Mən sanki onunla həm dərdləşirəm.
Yenə şaha qalxıb cövlan eyləyir,
Məni sözü ilə heyran eyləyir.
Sən vermə sevgini heç zaman bada,
Qoymaram o səni bir də aldada.
Onun sözlərindən təsəlli tapdım,
Səni ürəyimdən çıxarıb atdım.

*Xəzri Xırdalanlı*

# SEVGİLİLƏR ÜÇÜN...

**Məni bir dəqiqə deyil, bir saniyə də deyil, bir saniyənin onda biri qədər sevməyin kifayətdir… İnan, bu sevginlə mən bir il deyil, on il deyil, min il xoşbəxt yaşayaram.**

***

**Səni itirmək qorxusu ilə yaşayarkən "gözlə, bir gün qayıdacağam" deyirsən. Cismim gözləyər, amma qəlbim qan ağlayır sənsiz keçən hər gün.**

***

**Ömrüm səni gözləməklə geçəcəksə və ölüm səni gözlədiyim anda gələcəksə, bil ki, səni orada da gözləyəcəyəm.**

***

**Qəlbimdə taxt qurdun, qəlbimin sultanı oldun, gecələr göy üzündə parlayan ulduzum, səhərlər ruhuma doğan günəşim oldun.**

***

**Gül nədir ki? - Solub gedər. Gün nədir ki? - Gəlib gedər. Alov nədir? - Sönüb bitər. Amma sənə olan sevgim sonsuzdur, yalnız məzarda bitər.**

***

**Sevgimizi qara buludlar bürüyübsə, gözlə qoy yağış yağsın. Çünki yağışdan sonra mütləq göy qurşağı çıxır.**

***

**Mənə bir günün 24 saatdan, 1 saatın 60 dəqiqə və 1 dəqiqənin 60 saniyədən ibarət olduğunu öyrətdilər. Amma sənsiz keçən 1 saniyənin sonsuzluq qədər uzun olduğunu öyrətmədilər.**

***

**Bir gün həyatın bütün gözəlliklərindən əl çəkib, səssiz-sədasız ölmək istəsən, yanıma gəl. Yanıma gəl ki, sənsizliyin və sənsiz yaşamağın ölümə bərabər olduğunu sənə göstərim.**

***

**Sarı geyinib günəş olarsan, mavi geyinib dəniz olarsan, qırmızı geyinib çiçək olarsan və kim bilir, bəlkə bir gün ağ geyinib mənim qismətim olarsan.**

## Həzin notlar…



*Qışın soyuğunu görmüşəm. Şaxtasını, ayazını görmüşəm. Həmişə soyuqluq gətirmişdi ömrümə. Dondurucu bir soyuqluq. Amma bu qış belə olmadı, fərqləndi əvvəlkilərdən. Bu qış ömrümə baharı gətirdi. Baharın gül qoxusunu, parlaq günəşin istisini bəxş etdi ömrümə. Çünki sevdim… sevildim… İstək dolu bir qucağda əzizləndim. Sevgi süzülən ılıq barmaqlar gəzdi üzümdə, gözümdə. Bir cüt qara gözün dərinliyində gördüm özümü. "Gedirəm" deyəndə mənə qovuşmaq üçün açılan qolların çarəsiz-çarəsiz boşaldığını duyduğum həzin bir məkanda gördüm özümü. Gedə bilmədim… Getmək istəmədim… Gecələri məni gözləyən işıq dolu bir evdə, qışın bu ılıq, kövrək istisində ömürlük qalmaq istədim…*

## Pritça

*… Böyük qum dağının dibində oturdu. Əlindəki balaca qaşıqla dağı döyəcləməyə başladı. Dağdan yalnız kiçicik qum seli axdı. Barmaqları ağrıdı. Qum dağı möhtəşəmcəsinə dayanmışdı. Birdən ayıldı elə bil. Qaşığı dağın ətrafındakı qum təpəciklərinə çırpdı. Kiçik qum təpəcikləri sərrast zərbələrə dözmədilər; uçuldular, dağıldılar. Yerlə bərabərləşərkən qum dağına sarı təəssüflə baxdılar…*

***Xatirə Əsilbəyli***

## Sevdiyiniz oğlanın ailəsi ilə ilk görüş

*Əlbəttə ki, sevdiyiniz oğlanın ailəsi övladının bəyəndiyi qızı görmək və tanımaq istəyər. Əgər oğlan sizi evinə, ailəsilə tanış olmağa dəvət edirsə, bu təklifi rədd etməyin. Valideynlə ilk tanışlıq sizin üçün gərgin və həyəcanlı keçə bilər. Siz mülayim, xoşxasiyyət, gülərüzlü olsanız belə, onların gözü yenə də sizin üstünüzdə olacaq. Bütün hərəkətlərinizə diqqət yetirəcəklər. Onların çox sevdikləri oğlanlarına layiqsinizmi? Bax buna qərar vermək üçün bütün nəzər-diqqətləri sizdə olacaq. Amma heç bir narahatçılığa dəyməz. Özünüzdə inam yaradın və təqdim etdiyimiz 4 üsulu həyata keçirin. Bu görüşdən sonra onların fikri dəyişəcək və övladlarının sizin kimi bir xanıma layiq olub-olmadığını düşünməyə başlayacaqlar.*



**Onun haqqında yaxşı fikirdə olun**

Ata və ananın qəlbini qazanmaq istəyirsinizsə, ilk öncə övladı haqqında yaxşı fikirdə olmaq lazımdır (sevgilinizi o ki var tərifləyib, müsbət cəhətlərini dilə gətirin). Nə edirsinizsə edin, sevdiyinizin dəyərini bildiyiniz və onu çox istədiyinizi hiss etdirin. Beləliklə, sizə inam yaranar və ona qarşı yaxşı davranacağınıza şübhə etməzlər.

**Səviyyənizi göstərin**

Hər bir valideyn övladının gözəl bir qızla ailə qurmağını istəyər. Gözəl, eyni zamanda ağıllı bir gəlinə heç kim etiraz etməz. Siz onun valideynləri qarşısında çox utancaq olmayıb təbii davranın və fikirlərinizi açıq-aşkar söyləməkdən çəkinməyin. Əsası odur ki, mübahisəli mövzulara toxunmayasınız. Əgər sizin fikirləriniz onun ailəsinin fikirləri ilə üst-üstə düşmürsə, onda onların fikirlərinə qatılın. Əks halda hörmətsizlik etmiş olarsınız. Din, siyasət kimi riskli mövzulardan heç söhbət açmasanız yaxşıdır. Özünüz də fərqinə varmadan onları təhqir edə bilərsiniz. Sonda yeməklərdən zövq aldığınızı dilə gətirməyi və yeməyi bişirən anaya təşəkkür etməyi unutmayın. Yoxsa anası sizin diqqətsizliyinizdən şikayət edə bilər.

**Onlara uyğunlaşmağa çalışın**

Əlbəttə ki, quzu kimi davranıb, sürünün arxasınca getməyi nəzərdə tutmuruq. Bəzi məqamlar var ki, onlara uyğunlaşmağınız çox vacibdir. Hər ailənin özünəməxsus vərdişləri var. Buna hörmətlə yanaşmağa çalışın. Onlar necədirlərsə, siz də o cür olub onlara uyğunlaşın.

**Hərəkətlərinizə diqqət yetirin!**

Sevdiyinizin qoluna girmək və ya bu kimi başqa səmimi hərəkətlər etməyin. Sizin bu hərəkətiniz yanlışdır. Ailəsinin yanında bir sevgiliyə deyil, daha çox saf bir qıza bənzəyin. Bu halda sevdiyiniz də sizə sevgili gözü ilə deyil, bir dost kimi yanaşacaq.

## ELAN

«XƏMSƏ» qəzetinin nəzdində eyniadlı ədəbi məclis fəaliyyətə başlayır. Məclisi yaratmaqda məqsədimiz poeziyanı, söz sənətini sevən, eyni zamanda şer yaradıcılığına yenicə qədəm qoyan gənc ədəbi qüvvələrə kömək göstərmək, əsərlərinin nəşrində çətinliklərlə üzləşənlərin qarşısında «yaşıl işıq» yandırmaqdır. Bu işdə sizə respublikanın ədəbi ictimaiyyəti arasında böyük nüfuz qazanmış şairlər, tənqidçi-alimlər, bir sözlə, söz sərrafları yardımçı olacaq. Sizi burada görkəmli şairlər, ədəbiyyat və mədəniyyət xadimləri ilə unudulmaz görüşlər gözləyir.

İlhamınızın odunu sönməyə qoymayın! Bəlkə gələcəyin məşhur şairləri – nizamilərin, füzulilərin, sabirlərin varisləri sizin aranızdadır?!. Bu ümidlə «Xəmsə»nin qapısını açın və poeziya aləminə qədəm basın! Qoy uğur həmişə sizinlə olsun!

Əgər məclisimizə üzv olmaqda qərarlısınızsa, 470–03–33 nömrəli telefona zəng etməklə bu arzunuzu həyata keçirə bilərsiniz. «Xəmsə» ədəbi məclisinin ilk yığıncağının keçiriləcəyi tarix qəzetimizin gələn saylarında elan ediləcək. Bizi izləyin!

# TƏBRİKLƏR



**Şəms** balanı *10 yaşı* tamam olması münasibətilə bacıları **Aysel, Ləman** və **Günay** təbrik edir. Bu təbrikə "Xəmsə" redaksiyasının kollektivi də qoşulur.
Şəms balamız, qoy ömrünə günəş doğsun və hər zaman şüaları ilə qəlbini isitsin, şəfəqləri isə heç bir zaman gül üzündən azalmasın.

*Gül balanın ad günüdür,*
*Sevinc bəxş edib hər kəsə.*
*Şəms balanın şad günüdür,*
*Təbrik edir onu "Xəmsə"!*



**Xaliqin 21 yaşı** tamam olur. Bu münasibətlə onu anası **Sona**, bacısı **Gülşən**, qardaşı **Mobil** və **Rüstəm** təbrik edir.
Ömrünün ən çılğın dövrünü yaşayan **Xaliqin** üzündən təbəssüm, qəlbindən sevgi, həyatından sevinc heç bir zaman əskik olmasın. Xoş günlər, xoş gələcək hər zaman onun nəsib-qisməti olsun.

*Hazırladı: Günay*

# DÜNYADA TƏK GÖZƏLİM SƏNSƏN



**"Oxuyur Təranə Vəlizadə və Eyvaz Həsənov". Necə də gözlənilən idi bu elan. Ürəkləri oxşayan ifa, səhnə və efir mədəniyyəti - əvəzində isə tamaşaçı alqışı, tamaşaçı məhəbbəti. Onların hər ikisi səhnəyə ayrı gözəllik, ayrı bir yaraşıq verirdi. İfalarındakı istər şən, istərsə də lirik mahnılar o qədər könülləri oxşayırdı ki, həmin mahnıları qeyri müğənninin ifasında eşitməyi ağlına belə gətirmək istəməzdin. Neçə illər bizi bu elandan ayırsa da, bu gün bu elanın yeganə ünvanı olan Təranə xanım Vəlizadə ilə görüşdürmək istədik sizləri, əziz oxucularımız.**

**- Nə vaxt hiss etdiniz ki, mütləq müğənni olacaqsınız? İlk sənət müəllimləriniz kimlər olub?**

- Hələ uşaq yaşlarımdan mənə elə gəlirdi ki, artıq artistəm. Bağçamızda hazırlanan bütün şənliklərin, bayramların solisti kimi ancaq məni seçərdilər. Bütün mahnılardakı solo hissələri, səhnəciklərdə baş rolları mənə həvalə edərdilər. Hərdən o illərin şəkillərinə baxıram. Bütün şəkillərdə ya oxuyuram, ya da rəqs edirəm. Beləcə, 8-ci sinfi bitirib Asəf Zeynallı adına Musiqi Məktəbinə gəldim. Sənədləri 18 yaşından götürürdülər. Mənimsə cəmi 16 yaşım vardı. Düz direktorun yanına getdim, xahiş etdim ki, heç olmasa səsimi yoxlasınlar. Azər müəllim "buyur" dedi. Mən də özümü, diqqətimi müğənnisayağı cəmləyib bir rus mahnısı oxudum. Azər müəllim Əhməd Bakıxanovu çağırtdırdı. O da səsimə qulaq asdı və "Qonşu qız" mahnısını mənə oxutdurdu. Deyəsən, səsim onları qane eləmişdi. Ritmimi, sluxumu da yoxlayıb "əla" dedilər. Azər müəllim "bax ha, bu qız muğam şöbəsində oxumalıdır" deyə Əhməd müəllimə göstəriş verdi. Beləliklə, əla qiymətlərlə Asəf Zeynallı adına Musiqi məktəbinin muğam şöbəsinə daxil oldum. İlk müəllimim Nəriman Əliyev oldu. Əvvəl hər şey mənə çətin gəlirdi. Özünüz təsəvvür edin. Yaşca hamıdan kiçik, rus təhsilli, şəhər qızı və muğam şöbəsi. Sarışın olduğuma görə, müəllimlərim də mənə elə hey «sarışın qız» deyərdilər. Dərslərdə bir qədər sıxılırdım. Çünki mən bu vaxta qədər o qədər rus mahnıları oxumuşdum ki… Öz üzərimdə çox çalışırdım. Füzulinin qəzəllərini öyrənib oxyuyurdum. Nəriman müəllim mənimlə məşğul olmaq üçün fərdi saatlar təyin etmişdi. Saatlarla məşq edirdim. Sonra Ceyran xanım məni "Lalə" qızlar ansamblına dəvət etdi. O ansamblın özü elə bir konservatoriya idi. Ceyran xanım elə ciddi-cəhdlə məşqlər edirdi ki, başqa heç nə yadımıza düşmürdü. Üç aydan sonra efirdə "Lalə" qızlar ansamblının konserti oldu. Axşam efirdə mahnı oxudum, səhərisi elə bil "bomba partlamışdı". Hamı axşamkı konsertdən danışır, bizi təbrik edirdi. Elə birinci çıxışımdan sonra məşhur oldum. Ceyran xanım və həyat yoldaşı Mirşahin müəllim o illərdə mənə çox şey öyrətdilər. Səhnə yerişini, reverans etməyi, tamaşaçılara necə baş əyməyi və s.

**- Bu günə qədər ifa etdiyiniz mahnılardan hansını qəlbinizdə daim yaşadır, oxuyursunuz? Və ya könülsüz oxuduğunuz mahnı olubmu?**

- Əsla. Bu günə qədər yüzlərlə mahnı ifa etmişəm. Amma heç bir mahnını könülsüz, ürəksiz oxumamışam. Bəstəkar tərəfindən mənə mahnı təqdim olunanda ilk əvvəl sözlərinə diqqət yetirirəm. Bəlkə də bu, ədəbiyyatçı olduğumdan irəli gəlir. Axı mən Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişəm. Sözə qarşı tələbkarlıq hissi yəqin bu səbəbdəndir. Mahnının mətnində canlı bir obraz yaşamalıdır. Əgər mahnıda mənim səsim, nəfəsim varsa, deməli, o mahnı canlı bir varlıqdır. O da bəstəkar, şair və müğənni tərəfindən, onların ürəyinin süzgəcindən keçə-keçə, gecəni gündüzə qatan məşqlərin bahasına başa gəlib, sanki körpə uşaq kimi həyata gəlir, ağlayır, ağladır, gülür, güldürür, beləcə, yaşayır, yaşadır.

**- Nəyi özünüzə və heç kimə bağışlamazdınız? Ümumiyyətlə, bağışlamağı bacarırsınızmı?**

- Müqəddəs kitabımız Qurani-Kərim "Bismillahir-rəhmanir-rəhim", yəni "Bağışlayan və mehriban Allahın adı ilə" kəlməsilə başlayır. Ulu Tanrımız rəhm edənləri və bağışlayanları sevir. Mən də Allahın xatirinə bağışlayıram.

**- İradə sizin üçün nədir?**

- Deyə bilmərəm ki, mən iradəli adamam. Mən son dərəcə səbirli, dözümlü insanam. Buğa bürcündən olanlar adətən səbirli olurlar, eləcə də mən. Mənə elə gəlir ki, ümumiyyətlə, qadınların səbri tükənməzdir. Bəlkə qadınlara çox səbirli olduqlarına görə zəif məxluq deyirlər. Qadınınsa gücü elə onun zəifliyindədir. Hər halda bu mənim fikrimdir.

**- Təsadüfən şer yazmamısınız ki?**

- Elə bir gənc olubmu ki, şer yazmasın, ürək çırpıntılarını, qəlbinin səsini şerə çevirməsin? Mən də gənc vaxtlarımda şerlər yazırdım. Eyvazla tanış olandan sonra isə elə bil utandım şer yazmağa. Çünki Eyvaz elə gözəl şerlər yazırdı ki…



Nişanlı vaxtımız idi. Hərdən dənizkənarı bulvara gəzməyə gedərdik. Mənim şıltaq uşaq təbiətim hələ də qalmaqda idi. Gah bu, gah da o biri səkiyə keçir, atılıb-düşürdüm. Elə bil sakit otura bilmirdim. Eyvaz isə elə bulvardaca skamyada əyləşib şer yazardı. O qədər incə, həssas qəlbi var idi ki... O özünün daxili aləmi ilə başdan-ayağa şair idi. Hər bir şeydə məna axtarırdı, dünyaya, kainata fəlsəfi baxışı vardı. Sevgi isə onun üçün ən müqəddəs varlıq idi.

Artıq evli idik. Bir dəfə toya getmişdik. Toyda oxuyan müğənninin çox gözəl səsi var idi. Eyvaza dedim: "Görürsən, nə gözəl oxuyur, özü də gözəldir, səsi də". O xəfif gülümsəyib, "mənim üçün dünyada bir gözəl var, o da sənsən" dedi. Çoxlu dostları vardı. Ən yaxın şair dostları isə Əli Kərim və Nüsrət Kəsəmənli idi. Daim şerlərini bir-birilərinə oxuyardılar. Rəhmətlik Əli də, Nüsrət də həmişə ona "Eyvaz, sən yaz, əla yazırsan" deyərdilər. Görün bu sözü ona kimlər deyirdi? Əli Kərim və Nüsrət Kəsəmənli. Əli Kərimin vaxtsız vəfatı onu çox üzürdü. Bu itki ilə heç cürə barışa bilmirdi. Bir gün oturub Əli Kərimin ölümünə şer yazdı:

*Ölüm yaxşılara qıymayaydı kaş,*
*Zəhləm gedir onun qurd xislətindən.*
*Bilsəydi ki, kimi aparır, qardaş,*
*Ölüm də ölərdi xəcalətindən.*

Bu şerin yazılan günün səhəri Eyvaz özü dəhşətli ölümlə üzləşdi. Mənim Eyvazım o günün səhəri artıq həyatda yox idi. Əli Kərim üçün yazdığı şerə elə özünə qismət oldu. İndi o şer parçası Eyvazın məzarının sinədaşına həkk olunub. Bu da bir qismət, alın yazısı imiş, deməli.

**- Təranə xanım bu gün nə ilə məşğul olur, yaradıcılığınızda nə kimi yeniliklər var, yeni mahnılar üzərində işləyirsinizmi?**

- Bu gün, əlbəttə, işləyirəm, çalışıram. Əsl dostların mənəvi cəhətdən dəstəyi və Tanrının mənə verdiyi qürur, əyilməzlik sayəsində yenidən yaradıcılığa başladım. Bilirsiz, bəzən məndən "keçən günlərinizə gələn günlərinizi qurban verərdinizmi?" -deyə soruşanda qətiyyətlə "yox" cavabını verirəm. Mən olub-keçənləri oxunmuş səhifə kimi çevirmişəm. Axı mən o günlərə qayıtsam, sevincli anlarla yanaşı, o acıları da yenidən yaşamalıyam. Mənim övladım var. Onu böyütmək, təhsil vermək, bir sözlə, onun bütün qayğıları artıq mənim öhdəmə düşübsə, mən necə daim özümə qapalı qalıb, sentimental hisslərin müşayiəti ilə günəşli səhəri zülmət gecəyə çevirə bilərdim? İnanın, mən heç vaxt övladımın yanında ağlamamışam, çalışmışam o da reallıqla barışsın. Onu nazlı qız kimi böyütməmişəm. Əksinə, ona, necə deyərlər, əsgər tərbiyəsi vermişəm. Bəlkə ona görədir ki, mənim övladım mərd, şücaətli, qorxu nədir bilməyən bir qızdır. Zaman-zaman ərlərini itirən gəlinlərimiz, qadınlarımız azmı olub? Mən onların hansından artığam ki? Dərdə əyilən adam deyiləm. Odur ki, bu illər ərzində yaradıcılığımı da davam etdirirəm. Bir sözlə, sənətimi yaşadıram. Yaradıcılığım 22 il bundan əvvəl oxuduğum duetlərdən ibarət deyil. O duetlərdən sonra mən bir sıra bəstəkarların: Səid Rüstəmov, Hacı Xanməmmədov, Nəriman Məmmədov, Bəxtiyar Kərimov, Tofiq Əhməd, Oqtay Rəcəbov, Oqtay Kazımov, Emin Sabitoğlu, Ramiz Mirişli, Şəfiqə Axundova, Rəşid Şəfəq, Elza İbrahimova, Adil Bəhramov, Nüşabə Muradova, Şahid Əbdülkərimov, Zabitə Məmmədova, Rəşid Nəsiboğlu, sonralar isə Aydın Ağayev, Sərdar Fərəcov, Elza Seyidcahan, Mətanət Dadaşova və Hüseyn Sözlünün mahnılarını ifa etmişəm.

"Duetlər", "Sevdalı ürəklər", "Tənha qadın" adlı kasetlərim, disklərim işıq üzü görüb. Bu illər ərzində dünyanın hər yerini - Avropanı, Asiyanı dolaşmışam, xarici səfərlərdə, ümumi seçmə konsertlərdə Rəşid Behbudov, Zeynəb xanım Xanlarova, Fidan və Xuraman Qasımovalar, Firəngiz Əhmədova, Fərhad Bədəlbəyli, Habil Əliyev kimi korifey sənətkarlarla yanaşı möhtəşəm konsert salonlarında çıxışlarım olub. Mənim mahnılarım dillər əzbəri idi. İfa etdiyim mahnılarla Skandinaviya adalarında, Finlandiyada, Norveçdə, İsveçdə, Portuqaliyada, Türkiyədə konsertlər vermişəm. Bu illər ərzində Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində, Xalq Çalğı Alətləri ansamblında, "Baba Salahov", "Əhsən Dadaşov", "Ağası Məşədibəyov" adına ansambllarda, "Dan ulduzu" instrumental ansamblında, T.Əhmədov adına Azərbaycan Dövlət Simfonik Caz ansamblında çalışmışam. Azkonsert dediyiniz konsert birliyinin yükünü çiyinlərimdə daşımışam, necə deyərlər, zəhmətimlə bu işdə külüng çalmışam. Hazırda müxtəlif ansambllarla, Kamera ansamblı və Azərbaycan Dövlət Xalq Çalğı alətləri Orkestri ilə məşqlər edir, konsert proqramına hazırlaşıram. Bundan başqa, Əhsən Dadaşov adına Xalq Çalğı Alətləri ansamblı ilə xalq mahnılarından ibarət konsertə hazırlaşıram. Bütün bu yaradıcılıq işləri ilə yanaşı fərdi olaraq tələbələr hazırlayır, onlara ifaçılıq sənətinin sirlərini öyrədirəm. Çalışıram ki, tələbələrim əsası, kökü olan əsl sənətin yolu, cığırı ilə getsinlər, 3-5 günlük populyarlığın yolu ilə yox. Bundan əlavə, tez-tez xeyriyyə konsertləri ilə əsgərlərin qarşısında, əlil uşaqlar evində çıxışlar edirəm. Əlbəttə ki, bunu reklam xatirinə deyil, sadəcə olaraq, daxildən gələn mərhəmət hissi və ürəyimin hökmü ilə yerinə yetirirəm. Bu mərhəmət hissi Allahla mənim aramda olan möhkəm bir bağlantıdır.

**Təranə xanım "iradə sizin üçün nədir?" sorğusuna belə bir cavab verdi:**

**"Deyə bilmərəm ki, mən iradəli insanam…"**

**Bugünkü görüşümüzdə isə olduqca incə, zərif Təranə xanımla yanaşı, həyatın bütün sınaqlarından alnıaçıq, mərdliklə çıxan əsl Azərbaycan xanımı, əsl sənətkar, əsl ana, bir sözlə, iradə sahibi ilə tanış olduq. Arzularımıza gəldikdə isə, "siz ehtiyacı olanlardan mərhəmətinizi, pərəstişkarlardan, sizi sevənlərdən yeni mahnılarınızı əsirgəmədiyiniz kimi, qoy ulu Tanrı da öz nəzərini üstünüzdən əskik etməsin".**

*Xanım Novruzqızı*

## Hər cümlə bir xəbər

***Hazırda** Qətərdə çıxışlarını davam etdirən Fransa millisinin sabiq kapitanı, dünya və avropa çempionu Marsel Desayi yayda Avropa klublarından biri ilə müqavilə bağlayacağını elan edib.

***Ukrayna** milli futbol komandasının baş məşqçisi Oleq Bloxin vəzifəsindən istefa verib.

***İtaliya** mətbuatının verdiyi xəbərlərə görə, "Yuventus" Almaniyanın "Bavariya" və Xorvatıstan millisinin 30 yaşlı müdafiəçisi Robert Kovaçla 4,5 milyon məbləğində 2 illik müqavilə imzalayıb.

***Portuqaliya** millisinin hücumçusu Pedro Pauleta İstanbulun "Qalatasaray" klubu ilə danışıqlara başlayıb.

***Madrid** "Real"ının başqanı Florentino Peres, baş məşqçi Vanderley Luşemburqonun gələn ildə komandada işləyəcəyini elan edib.

***Moskvanın** "Spartak" klubu Çexiya millisinin yarımmüdafiəçisi Radoslav Kovaç və Avstriya millisinin müdafiəçisi Emanuel Poqatsı heyətinə qatıb.

***Rusiya** güclülər dəstəsinin "Tom" (Tomsk) klubu "Rostov" komandasının keçmiş qapıçısı İlya Bliznyuk ilə müqavilə imzalayıb.

***Kiyev** "Dinamo"su və Ukrayna millisinin yarımmüdafiəçisi Andrey Qusin Rusiyanın "Krılya Sovetov" klubuna keçib

***Məşhur** argentinalı Qabriel Batistuta futbolçu karyerasına son qoyduğunu elan edib.

***İtaliyanın** "Parma" klubunun qapıçısı Sebastyan Frey mövsümün sonunda komandanı tərk edə bilər. Hazırda onunla Avropanın bir sıra klubları, o cümlədən İngiltərənin "Mançester Yunayted", "Arsenal", "Tottenhem" və "Liverpul" taqımları maraqlanır.

***Çexiya** millisi və Almaniyanın Mönhenqladbax şəhərinin "Borussiya"sının hücumçusu Marek Haynts Çexiya "Banik"i ilə müqavilə imzalayıb.



## Kollinanın yeni vəzifəsi

İtaliyanın "Qadzetta dello sport" qəzetinin verdiyi məlumata görə, tanınmış futbol hakimi, italiyalı Pyerluici Kollina gələn ildən iş yerini dəyişəcək. Yaşına görə İtaliyada hakimlik karyerasına mövsümün axırında son qoyacaq Kollina ölkə futbol federasiyasından aldığı təklifi fikirləşmədən qəbul edib. 2005/2006-cı il futbol mövsümündən başlayaraq, hakimlik karyerası ərzində altı dəfə planetin ən yaxşı referisi tituluna layiq görülən italiyalı, "A" və "B" seriyalarında matçlara təyin olunacaq hakimlərə başçılıq edəcək. Daha doğrusu, İtaliya futbol federasiyası hakimlər kollegiyasına sədrlik edəcək. "A" və "B" seriyasında keçiriləcək hər bir oyuna hakimlər bilavasitə onun iştirakı və göstərişi ilə təyin ediləcək.

## Stam "Milan"ın Çempionlar Liqasında qalibiyyətinə inanır



Hollandiya millisi və İtaliyanın "Milan" klubunun müdafiəçisi Yap Stam İtaliya televiziya kanallarından birində verdiyi müsahibəsində komandasının həm daxili çempionatda, həm də Çempionlar Liqasında qalib gələcəyinə 100 faiz əmin olduğunu bildirib. Onun sözlərinə görə, hazırda yer kürəsində "Milan"dan güclü klub yoxdur. Həmçinin o, komanda ilə müqaviləsini 2007-ci ilə qədər uzadıb. Xatırladaq ki, 32 yaşlı niderlandlı müdafiəçi "Rossoneri"lərə ("Milan"ı belə də adlandırırlar) 10,5 milyon avroya başa gəlib.

## Raul: "Lazım gəlsə, "Real"ı tərk etməyə hazıram"

Çempionlar Liqasındakı müvəffəqiyyətsizlik və ölkə çempionatında qeyri-sabit çıxışı Madrid "Real"ındakı daxili problemləri daha da dərinləşdirib. Ulduz futbolçular baş məşqçi braziliyalı Vanderley Lüşemburqo və komandanın məsləhətçi-məşqçisi, italiyalı Arriqo Sakkinin qurduğu məşq sistemlərindən narazıdırlar. Onların arasında Raul, Kasilyas, Bekhem və Fiqu kimi ulduzları göstərmək olar. Cümə günü yerli qəzetlərdən birinə verdiyi müsahibəsində komandanın simvolu və kapitanı Raul aşağıdakıları bildirib: "Klubun daxilindəki söz-söhbət kəsilmək istəmir. Buna əsas səbəb baş məşqçi və məsləhətçi-məşqçinin qeyri-düzgün siyasətidir. Onlar başa düşməlidirlər ki, biz uşaq deyilik, artıq püxtələşmiş peşəkar futbolçularıq. Məşqdə nə edib-etməməyi çox gözəl bilirik. Mənə gəlincə isə, karyeramı "Real"da davam etdirməyi özüm üçün şərəf bilərdim. Madridli azarkeşlər dunyada ən yaxşılardandır. Bununla birlikdə onlar olduqca tələbkardırlar. Bu mövsüm təəssüflər olsun ki, onların etimadını doğrulda bilmədik. Çempionlar Liqası, Ölkə Kuboku və milli çempionatdakı uğursuzluqlara görə bütün "Real"sevərlərdən üzr istəyirəm. Hazırda qarşımızda bir məqsəd var. Qabaqdan gələn Çempionlar Liqası turnirinə vəsiqə qazanmaq və bunu əldə edəcəyimizə şübhəm yoxdur. Qeyd etmək istərdim ki, "Kral klubu"nun bu ilki qeyri-sabit çıxışında komanda rəhbərliyinin də günahı var. Mövsüm ərzində üç dəfə baş məşqçimiz dəyişib. Təəccüblü deyil ki, onların hərəsinin öz dəsti-xətti var və buna da uyğunlaşmağa vaxt lazımdır. Nə Kamaço, nə də Qarsiya Remon axıra qədər işləmədi. İndi də Lüşemburqo ilə Sakki. Təbii ki, bütün bunlar komandaya öz mənfi təsirini göstərib. Kamaço və Remondan fərqli olaraq, Lüşemburqo-Sakki dueti ulduz futbolçulara qarşı daha sərt mövqe tutublar. Bu isə istər-istəməz öz mənfi nəticəsini verəcək. Mənə belə gəlir ki, komandadakı daxili vəziyyət dəyişməsə, klubda parçalanma ola bilər. Bu isə bəzi aparıcı futbolçuların "Real"dan getməsilə nəticələnə bilər. Dediklərim mənə də aiddir. Əgər komandada mənə ehtiyac duyulmursa, canımdan da çox sevdiyim "Real"ı tərk etməyə hazıram. Lakin bununla belə, məsələnin belə həllini istəməzdim".



## 13 yaşlı dahi

Hollandiyanın PSV "Eyndhoven" klubu 13 yaşlı braziliyalı futbolçu ilə müqavilə imzalayıb. Öz ölkəsində məşhur Pelenin davamçısı kimi qəbul edilən bu dahinin adı Nisau Van Mirassoldur. Şahidlərin dediyinə görə, Nisau olduqca istedadlıdır və yaşıl meydanda yaşından qat-qat kamil oyun nümayiş etdirir. PSV-nin nümayəndəsinin sözlərinə görə, eyndhovenlilər dahini "Barselona" (İspaniya) ilə gərgin mübarizədən sonra əldə ediblər. Və onların istəyi daha güclü olduğundan Van Mirassolun valideynləri PSV-ni seçib. Lakin gənc futbolçu hələlik vətənində qalmalı olub.

Hazırda qüvvədə olan qanuna görə, FİFA Amerika qitəsindən olan və 15 yaşına çatmayan futbolçularla rəsmi müqavilə bağlamağı Avropa klublarına qadağa edib. Bax elə buna görə də Nisau yaxın iki ili Braziliyanın "Paulista" klubunda icarədə qalacaq.

Lakin buna baxmayaraq, istedadlı yeniyetmə ilin üç ayını Hollandiyada keçirəcək. PSV buna yeniyetmənin yerli şəraitə uyğunlaşması, ingilis və holland dillərini öyrənməsi ilə izah edir.

## Karikatura Romarioya baha başa gəldi



Braziliyanın Rio-de-Janeyro şəhər məhkəməsi məşhur futbolçu Romarionu 16 min avro məbləğində cərimə edib. Səbəb isə aşağıdakıdır. Romario özünün "Cafe du Goal" şəxsi kafesinin ayaqyolundan digər braziliyalı futbol əfsanəsi - hazırda Yaponiya milli komandasının baş məşqçisi Zikonun karikaturasını asıb. Bundan xəbər tutan "ağ Pele" (Zikonu belə də adlandırırlar) dərhal məhkəməyə müraciət edib. Nəticədə hakimlər Zikonun xeyrinə qərar çıxarıblar. Romario Yaponiya millisinin baş məşqçisinə mənəvi zərər vurduğu üçün kompensasiya olaraq 16 min avro cərimə ödəməlidir.

## "Yuventus" titullarını itirmək təhlükəsindədir

Turinin "Yuventus" klubunun həkimi Rikkardo Akrikolanın praktikasında qadağan olunmuş dərmanlardan istifadə etməsi məhkəmədə təsdiq edildikdən sonra "Qoca Sinyora"nın ("Yuventus"u belə də adlandırırlar) başını qara buludlar alıb. Yayılan informasiyalara görə, komandanın 1994-1998-ci illərdə qazandığı bütün titulları əlindən alına bilər. Bu isə nə az, nə də çox, üç "skudetto" (üç ölkə çempionu titulu), Çempionlar Liqasının Kuboku, Avropa Fövqəlkuboku və İtaliya Kuboku turnirlərinin qalibi titullarıdır. Səbəb isə yuxarıda qeyd etdiyimiz kimi, Aqrikolanın praktikasında dopinqlərdən istifadə etməsidir. Əgər futbolçuların adıçəkilən turnirlərdə qadağan olunmuş preparatlardan istifadə etməsi faktı təsdiq olunarsa, bu zaman "Yuventus" 1994-98-ci illərdə əldə etdiyi titulları itirə bilər. Lakin klubdan verilən xəbərlərə görə, "Qoca Sinyora" bununla qəti razı deyil və sona qədər mübarizə aparacağını bəyan edib.

## Torres heyəti elan etdi

Martın 26 və 30-da müvafiq olaraq, Polşa və İngiltərə milliləri ilə dünya çempionatının seçmə qrup mərhələsi oyunlarına hazırlaşan Azərbaycan millisinin baş məşqçisi Karlos Alberto Torres 22 nəfərdən ibarət heyəti açıq elan edib.

**Qapıçılar:** D.Kramarenko ("Karvan", Yevlax), C.Həsənzadə ("Neftçi", Bakı) və R.Məcidov ("Anji", Mahaçqala, Rusiya).

**Müdafiəçilər:** M.Şükürov ("Karvan", Yevlax), A.Hacıyev ("Turan", Tovuz), R.Sadıqov ("Neftçi", Bakı), R.Əmirbəyov, R.Məlikov (ikisi də "Bakı", Bakı), S.Abbasov, A.Kərimov (hər ikisi "Qarabağ", Ağdam), V.Quliyev (MKT "Araz", İmişli).

**Yarımmüdafiəçilər:** A.Ponomaryov, Z.Həşimov, E.Baxşıyev (üçü də "İnter", Bakı), K.Quliyev ("Karvan", Yevlax), E.Quliyev ("Neftçi", Bakı), İlqar Əbdürrəhmanov ("Xəzər", Lənkəran).

**Hücumçular:** Q.Qurbanov ("Neftçi", Bakı), İ.Qurbanov ("Xəzər", Lənkəran), N.Nəbiyev ("Turan"), V.Nadirov ("Qarabağ") və D.Axtyalov ("İnter").

## VİKTORİNA

**Hörmətli oxucular, əgər siz futbolu ürəkdən sevir, öz güc və biliyinizə əminsinizsə, bizim viktorinada iştirakınız vacibdir. Viktorinanın şərtinə görə, hər 3 ayın qalibini hədiyyə (musiqi mərkəzi) və qəzetimizdə müsahibə gözləyir. Bu müddət ərzində ən çox xal toplayan iştirakçı qalib elan olunacaq. Hər düzgün cavab üç xalla qiymətləndiriləcək. Viktorina 12 turdan ibarət olaraq (hər ay 4 tur) keçiriləcək. Cavabları 12-ci turun sonuna qədər e-meyl, (E-poçt: newspaper@khamsa.az), redaksiyaya gətirməklə, məktub və aya 470-03-33 nömrəli telefona zəng etməklə çatdırmaq olar.**

### 3-cü tur

**1. Moskvanın "Spartak" klubunun hazırki baş məşqçisi kimdir?**
**A.** Aleksandr Starkov, **B.** Oleq Romantsev, **C.** Oleq Dolmatov

**2. 2004/2005-ci il futbol mövsümünün Çempionlar Liqası turnirinin "Çelsi" - "Barselona" təkrar 1/8 final matçında ilk qolun müəllifi kim oldu?**
**A.** D.Daff, **B.** E.Qudyonsen, **C.** M.Kejman

**3. Hazırda Hollandiyanın PSV "Eyndhoven" klubunun baş məşqçisi kimdir?**
**A.** Quus Hiddinq, **B.** Ronald Kuman, **C.** Ko Adrianse

**4. İspaniya milli komandasının baş məşqçisini göstərin?**
**A.** Sezar Ferrendo, **B.** Xose Antonio Kamaço, **C.** Luis Araqones

**5. Şotlandiya millisinin əfsanəvi hücumçusu Kenni Dalqliş yığma komandanın heyətində nə qədər oyun keçirib?**
**A.** 102, **B.** 96, **C.** 105

**6. Qapıçı Sebastyan Frey hazırda hansı klubun şərəfini qoruyur?**
**A.** "Bazel" (İsveçrə), **B.** "Kristal Pelas" (İngiltərə), **C.** "Parma" (İtaliya)

**7. İtaliyanın "Roma" klubunun prezidentinin qızının adı nədir?**
**A.** Kristina Sensi, **B.** Rozella Sensi, **C.** Klaudiya Sensi

**8. Argentinalı yarımmüdafiəçi Xuan Roman Rikelme hazırda hansı klubda çıxış edir?**
**A.** "Vilyarreal" (İspaniya), **B.** "Monako" (Fransa), **C.** "Sevilya" (İspaniya)

**9. Hazırda Bakının "Neftçi" klubunun baş məşqçisi kimdir?**
**A.** Kazbek Tuayev, **B.** Ağasəlim Mircavadov, **C.** Vaqif Sadıqov

**10. "Aberdin" klubu hansı ölkəni təmsil edir?**
**A.** İrlandiya, **B.** Şotlandiya, **C.** Uels

## Ölkə Kuboku

*1/4 final:*

**Təkrar görüşlər**

**"İnter"** (Bakı) - **"Neftçi"** (Bakı). **0:0**, pen: **4:3**. **(0:0)**.

**"Bakı"** (Bakı) - **"Karat"** (Bakı). **1:0** (R.Əmirbəyov,1). **(2:1)**.

**"Xəzər"** (Lənkəran) - **OMİK**. **1:0** (M.Stankov, 88). **(1:0)**.

**MKT "Araz"** (İmişli) - **"Gənclərbirliyi"** (Sumqayıt). **3:1** (Etove, 10, Muanza, 51: Maurinyo, 68; İ.Nikiema, 90+3). **(0:0)**.

*Yarımfinal:*

**"İnter"** - **"Xəzər"**

**MKT "Araz"** - **"Bakı"**

**Qeyd:** 1. Mötərizədə ilk oyunların nəticələri göstərilib. 2. Yarımfinal mərhələsinin ilk görüşləri aprelin 16-da, təkrar oyunlar isə aprelin 29-da keçiriləcək.

*Ölkə Çempionatı*

**23-cü tur:**

**"Şəmkir"** (Şəmkir) - **"Turan"** (Tovuz). **1:1** (P.Əliyev, 80; R.Hüseynov, 38)

**"Göyəzən"** (Qazax) - **"Qarabağ"** (Ağdam). **1:3** (T.Rzayev, 68; S.Musayev, 8, 33; İ.Məmmədov, 90+3)

**"Karvan"** (Yevlax) - **"Gəncə"** (Gəncə). **1:1** (F.İsmayılov, 12: Q.Beraya, 29)

**24-cü tur:**

**"Turan"** - **"Karvan"** **1:1** (N.Nəbiyev, 66; Y.Bamba, 88)

**"Qarabağ"** - **"Bakılı"** (Bakı) **1:1** (A.Kərimov, 85; E.Olukayode, 2)

**"Şahdağ Samur"** (Qusar) - **"Bakı"**. Təxirə salınıb.

**"Şəmkir"** - **"Şəfa"** (Bakı). **+:- (3:0)**

**UEFA Kuboku**

*1/8 final: təkrar oyunlar*

**OMİK** (Rusiya) - **"Partizan"** (Serbiya Çernoqoriya). **2:0 (1:1)**.

**"AZ-7"** (Hollandiya) - **"Şaxtyor"** (Ukrayna). **2:1 (3:1)**.

**"Nükasl"** (İngiltərə) - **"Olimpiakos"** (Yunanıstan). **4:0 (3:1)**.

**"Saraqosa"** (İspaniya) - **"Austriya"** (Avstriya). **2:2 (1:1)**.

"Sportinq" (Portuqaliya) - "Midlsbro" (İngiltərə). **1:0 (3:2)**.

**"Parma"** (İtaliya) - **"Sevilya"** (İspaniya). **1:0 (0:0)**.

**"Oser"** (Fransa) - **"Lill"** (Fransa). **0:0 (1:0)**.

**"Styaua"** (Rumıniya) - **"Vilyarreal"** (İspaniya). İlk görüş: **0:0**.

*1/4 final:*

OMİK - «Oser»
«Austriya» - «Parma»
«Nükasl» - «Sportinq»
AZ-67- «Vilyarreal» - «Styaua» cütünün qalibi.

**Çempionlar Liqası**

*1/8 final: təkrar oyun.*

**"İnter"** (İtaliya) - **"Portu"** (Portuqaliya). **3:1** (Adriano, 6, 63, 88; J.Koşta, 69). **(1:1)**.

*1/4 final:*

**1."Liverpul"** (İngiltərə) - **"Yuventus"** (İtaliya).

**2."Milan"** (İtaliya) - **"İnter"** (İtaliya).

**3."Lion"** (Fransa) - PSV **"Eyndhoven"** (Hollandiya).

**4."Çelsi"** (İngiltərə) - **"Bavariya"** (Almaniya).

**Yarımfinal:**

**4-cü** cütün qalibi - **1-ci** cütün qalibi
**3-cü** cütün qalibi - **2-ci** cütün qalibi

**Qeyd: 1.** Mötərizədə ilk oyunların nəticələri göstərilib. **2.** UEFA Kuboku turnirinin 1\4 final mərhələsinin ilk matçları 6-7 aprel, təkrar oyunlar isə 13-14 apreldə keçiriləcək. 3. Çempionlar Liqası turnirinin 1/4 final mərhələsinin ilk görüşləri 5-6 aprel, təkrar oyunları isə 12-13 aprel tarixlərində keçiriləcək.







1

Liman | Əyri (rusca) | FM | 3

Çay | Xalça

Şəhər | Saray | TV | Yaxşı həyat

Ölü

4 | Külfət | Meyvə | Papaq | İstək

Məşədi İbad | Dərman | Təbil | İlqar | Ərəb hərfi | Məsafə

Çərəz | Risalə | Film | Şiş | Mərakeş

Aid | Şəlalə | Ərzaq | Ədat | Ada | Kömür | Alim

Paytaxt (1.2.4.3) | Metal | Gəmi | AN | Çay | Say

İslamzadə | Opera | Plov | Fəs (tərs) | Çay | Aİ

Qəzet

Meyvə | Şil | Şəhər | Çay (tərs)




Kok | Tire | Parça | Əqrəb

5 | Naxçıvan (tərs)

VAZ | Əmr

Sarvan | Qasid | Çay

Ayaqqabı | Epos | Dad | Silah | Yağ

Aorta | Şurik | Ayaq | Ay | Oyun

Tərtibçi: RÜSTƏM

Düyü | Revanş | İlahə | İşıq | Güldan | Sim

Dəb (tərs) | Çətin | Musiqi aləti | Lay




2 | Zibil

Qiymətli daş

Sirab | Nalə | Mərmi | Kəm

Avtobus

Usta | Parça



*Əziz xanımlar! Qarderobunuzdan qara libası heç bir zaman əskik etməyin. Çünki bu libas hər zaman, hər yerdə sizin köməyinizə çatar.*

# Sehrli qara libas



***Qarderobunuzda mütləq bir qara libasınız olmalıdır.*** Bu libas sanki sehirlidir. Sizi incə, zərif göstərər. Bu geyimdə cazibədar görünə bilərsiniz. Həm gündəlik həyatınızda, həm də yığıncaqlarda bu geyimi geyinmək ağıllı fikirdir. Bunun üçün əvvəlcə öz stilinizi müəyyən etməlisiniz. Bədəninizin formasına uyğun libas seçməli və nə qədər açıq-saçıq olacağına qərar verməlisiniz. Xanımlar əsasən uzunluğu dizə qədər olan (midi) libaslara üstünlük verirlər. Çünki bu modeli istənilən yerə geyinmək və sərbəst hərəkət etmək mümkündür. Əgər ayaqlarınız düzdürsə və onların gözəl olduğuna inanırsınızsa, libasınızın uzunluğu dizinizdən yuxarı ola bilər.

***Qara libas aldığınız zaman onun parçasına diqqət yetirin.*** Parçanın növünün seçimində diqqətli olmalısınız. Çünki bu, cazibəli görünməniz üçün çox vacibdir. İpək, şifon parçadan hazırlanan geyimləri əsasən yaz aylarında, yun, pambıq, kətan parçalardan hazırlanan libasları isə soyuq aylarda geyinə bilərsiniz.

***Əgər libasınızı hər mövsümdə geyinmək istəyirsinizsə,*** sadə, bər-bəzəksiz bir libas alın. Aksesuarlarla onu zənginləşdirə bilərsiniz. Hər dəfə sadə qara libası geyinəndə ona



fərqlilik vermək üçün qarderobunuzda yayalıqlar və gözəl kolleksiyalar olmalıdır.

**Qara və boz rəngli geyimlər illər keçsə belə dəbdən düşməyən modellər sırasına daxildir.**

# Maskalar

## Çatlayan dodaqlar



Soyuq havanın təsirindən həssas dodaqlar tez quruyur və dodaqda çatlar əmələ gəlir. Bəzi hallarda isə çatlar qanayır. Soyuq qış günlərində dodaqlarınıza hər gün bal sürtün. Çünki balın tərkibində qlükoza və fruktoza var. Bunun sayəsində dodaqlar nəmlənər, mikroblar isə ölər.

## Əgər dəriniz qurudursa

*Sizə bir məsləhətimiz var*

1 ədəd bananı soyub balaca kasada əzin. 1 çay qaşığı bal və badam yağını banana əlavə edib qarışdırın. Qarışığı üzünüzə çəkib, 4-5 dəqiqə müddətində saxlayandan sonra ılıq su ilə yuyun.



## Saçlarınızı canlandırmaq üçün maskalar



*Saçlarınız mat görünüşə sahibdir və ucları qırılır?*

Bu halda təqdim etdiyimiz maskadan istifadə edin: qaba 1 yumurta sarısı ilə 2 x.q. zeytun yağı töküb qarışdırın. Maskanı saç dibinə sürtüb dərinizi masaj edin. 10 dəqiqə saxladıqdan sonra saçınızı şampunla yuyun. Beləliklə, saçlarınız sağlam və parlaq görünüş qazanacaq.

## *Saçı qidalandırmaq üçün*

1 yumurta sarısı, 1 armudu stəkan dəmlənmiş çay, 1 çay qaşığı badam yağı və 2 damcı limon suyunu bir qaba töküb qarışdırın. Saç dibinə sürtüb, dərini masaj edərək maskanı yedirin. 10-15 dəqiqə saxladıqdan sonra şampunla yuyun.



# NOVRUZ SÜFRƏSİ

## Göbələk peçenyesi

**Lazım olan ərzaqlar:**

1 paket marqarin,
1 stəkan şəkər pudrası,
2 ədəd yumurta,
1 stəkan un,



1 paket qabartma tozu.

**Hazırlanma qaydası:**

Bütün ərzaqları bir qaba töküb xəmir yoğurun. Sonra qoz böyüklüyündə hissələrə ayırıb başqa qaba müəyyən aralıqda düzün. Sok qabının ağız hissəsini kakaoya batırıb (göbələk forması vermək üçün), xəmirin üstünə basın. Əvvəlcədən isidilmiş sobada bişirin. Bişdikdən sonra göbələklərin iç qisminə şəkər pudrası səpib süfrəyə verin.

## Portağal şərbətli keks

**Lazım olan ərzaqlar:**

1 paket marqarin,
3 ədəd yumurta,
7 çay qaşığı şəkər tozu,
7 x.q. un,
1 çay qaşığı qabartma tozu,
1ədəd portağalın qabığı və suyu.

**Şərbət üçün:**

Portağal suyu,
Sürtgəcdən keçirilmiş1 portağal qabığı,
5 x.q. şəkər tozu.

**Hazırlanma qaydası:**



Yumurtaların ağını sarısından ayırın. Sarısını şəkər tozu ilə yaxşı-yaxşı qarışdırın. Ağını başqa qabda ağarana qədər qarışdırın. Un, qabartma tozu əlavə edib xəmir yoğurun. Portağalın suyunu sıxın, qabığını isə sürtgəcdən keçirib xəmirə əlavə edin. Xəmiri yağlanmış qaba töküb 180 dərəcə isidilmiş sobada, 20-25 dəqiqə müddətində bişirin.

Portağal suyu, sürtgəcdən keçirilmiş 1 portağal qabığı və şəkər tozunu qaynadıb şərbət hazırlayın. Keks bişdikdən sonra şərbəti üstünə gəzdirin.

## Damalı tort

**Lazım olan ərzaqlar:**

1 ədəd kakaolu tort üçün keks,
1 ədəd sadə tort üçün keks.

**Tortu bəzəmək üçün:**

1 paket hazır krem,
Sürtgəcdən keçirilmiş fıstıq.

**Krem üçün lazım olan ərzaqlar:**

6 x.q. un,
7 x.q. şəkər tozu,
7 ədəd yumurta,
1/2 kq. süd,
200 q. marqarin,
3 x.q. kakao.

**Hazırlanma qaydası:**

Krem hazırlamaq üçün lazım olan ərzaqları bir qaba töküb qarışdıraraq bişirin. Soyuduqdan sonra yağ əlavə edib mikserlə 10 dəqiqə müddətində qarışdırın. Hər iki keksin ortasını kasa ilə kəsərək çıxardıb bir-birilə dəyişdirin. Arasına və üstünə krem sürtün. Sonra tortu bəzəmək üçün hazır kremdən istifadə edib, fıstıqları üstünə səpin. Soyuducuda 1 saat saxladıqdan sonra servis edə bilərsiniz.



## Səməni halvası

**Lazım olan ərzaqlar:**

100 q. buğda,
500 q. 1-ci növ buğda unu,
100 q. ərinmiş yağ,
200 q. doşab,
100 q. qoz ləpəsi,
2 q. cirə,
1 q. istiot,
2 q. darçın,
1 q. razyana.

**Hazırlanma qaydası:**

Buğdadan adi qayda üzrə səməni cücərdilir. Səməni cücərtiləri sarımtıl rəngdə olduqda ətçəkən maşından keçirilir, şirəsi tənzifdən süzülür və un əlavə edilib xəmir yoğrulur. Xəmir yağlanmış mis tiyana qoyulur, zəif alov üzərində arabir çevirmək şərtilə (yanmasın deyə) dörd saat ərzində bişirilir. Hər dəfə xəmiri çevirdikdə altına azacıq yağ tökülür. Sonda kütləyə xırdalanmış qoz ləpəsi, ədviyyat və doşab vurulub yaxşıca qarışdırılır. Hazır halvadan iri bitoçki formasında paylar düzəldilib süfrəyə verilir.



# MARAQLI MƏSLƏHƏTLƏR

## ÇAY KEYFİ



Çayı 10 dəqiqə vam odda dəmə qoyun. Əgər dəm alan çay qaynasa, içindəki bəzi maddələr yox olar və çayın tamı pozular.

## SARIMSAĞI ASAN SOYMAĞIN YOLU

Sarımsağın qabığını təmizləmək üçün bütöv halda 15-20 dəqiqə müddətində isti suda saxlayıb soyudun. Belə etsəniz, sarımsağın asanlıqla soyulduğunu görəcəksiniz.



## SARIMSAQ QOXUSU

Sarımsağı yeyəndən sonra, bu qoxudan azca cəfəri yeməklə yaxa qurtara bilərsiniz. Əllərinizdəki sarımsaq qoxusunu yox etmək istəyirsinizsə, əllərinizi limon suyu ilə yumağınız kifayətdir.

## KARTOFU BİŞİRDİYİNİZ ZAMAN



Kartofu bişirdiyiniz suya 1 qaşıq sirkə əlavə etsəniz, kartofun həm rəngi gözəl olacaq, həm də ləzzəti artacaq.

## ÖSKÜRƏYƏ QARŞI

Yüngül xəstəliklərin qarşısını almaq üçün ballı soğandan istifadə etməyiniz məsləhət görülür. Bir baş soğanı iri-iri doğrayıb, bal olan qaba əlavə edin. Yaxşı-yaxşı qarışdırıb 1 gün saxladıqdan sonra, gün ərzində (səhər, axşam) bir qaşıq yeyin. Bununla da bütün soyuqdəymə canınızdan çıxacaq.

## SÜD BANKASINI NECƏ TƏMİZLƏMƏLİ?

Süd bankasının dibini təmizləmək üçün duz və sirkə qarışığını bankaya töküb yaxşı-yaxşı çalxalayıb yuyun. Bankanın asanlıqla təmizləndiyini görəcəksiniz.

## ƏTİN YUMŞAQ OLMASI ÜÇÜN



Ətin yumşaq olması üçün bişirməmişdən əvvəl limon suyuna bulayıb saxlayın. Bir neçə damcı limon suyu ilə ət daha yumşaq, daha ləzzətli olar və tez bişər.

## LİMON SUYU

Limonu bir neçə dəqiqə çox isti olmayan sobada saxlasanız, ondan daha çox su əldə edə bilərsiniz.



## TORTU KƏSƏNDƏ



Çörək və ya tort kəsməmişdən əvvəl, bıçağı bir qədər qaynar suda saxlayın. Beləliklə, çörək və ya tort ovulmaz.

## LƏKƏLƏRİ TƏMİZLƏMƏK ÜÇÜN

**Qəhvə ləkəsi üçün:** paltar sabununu suda köpürün. Ləkəli bölgəni köpüklü su ilə yuyun.

**Şokolad ləkəsi üçün:** ləkəni sabunlu soyuq su ilə yuyun və qliserinli su ilə silin.



**Tər ləkəsi üçün:** bu ləkəni bəyaz şəraba batırılmış bez ilə apara bilərsiniz.

**Meyvə ləkəsi üçün:** 3 çay qaşığı karbonatı 1 fincan soyuq suda həll olana qədər qarışdırıb ləkəli yerə sürtün.

*Hazırladı: Günay*

ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33




# Sevənləri ayırmaq günahdır

**Bəzi informasiya mənbələrinin məlumatından:**

Mətanət İsgəndərli həyat yoldaşı Orucun 22 yaşı olanda, 1983-cü ildə ailə qurublar. El adəti ilə nişan, toy olub. Qapısına elçi gedib, o da razılaşıb, evləniblər, yəni heç bir zor olmayıb. Nişanlı vaxtı da, evli vaxtlarında da münasibətləri yaxşı imiş. Ailədə mehribançılıq hökm sürürmüş. Lakin sonradan hər şey dəyişib. Mətanət xanım müğənnilik eşqinə düşüb. Hətta bir ara üç aylıq Türkiyəyə də gedib, bir müddət orada qalıb. Qayıdandan sonra isə yoldaşı Oruc onu yaxına buraxmayıb. Qayınanası Sitarə xanım da əvvəllər ona çox yalvarıb ki, müğənnilik etməsin, iki övladına yiyə dursun.



Mətanətin isə sənətə meyli daha üstün olub və elə bununla da ailədə münaqişələr başlayıb. Hətta Mətanətin atası da qızının hərəkətinə haqq qazandırıb.

Əslində, qayınananı və Orucu gəlinin müğənni olması yox, etdiyi xoşagəlməz hərəkətlər, haqqında deyilən söz-söhbətlər narahat edirmiş. Guya Bakı toyuna deyirmiş, səsi ayrı bir rayondan gəlirmiş. Evdə kimsə olmayanda evə gələn kişi musiqiçiləri, müğənnilər qonşuları narahat edirmiş. Özbaşına hara istəyirmiş gedirmiş. Qayınanasını bir böyük kimi saymırmış.

Dilarə demişkən, guyamış, Şüvəlanda restoranda işləyəndə müdirlə araları yaxşı olub. Tanınması da elə bundan sonra olub, deyirlər. Nə isə... Bu daha bizlik deyil.



Mətanətlə izdivacından zərər çəkən həyat yoldaşı Oruc, qayınanası Sitarə xanım və oğlu Kərim olur. Vəssalam. Oğlu Kərimi 3 il bundan qabaq nişanlayan müğənni indi fikrindən daşınıb. Elçilik edib qız alıb, nişan mərasimi keçirib. İndi isə Mətanət həmin qızı gəlini kimi görmək istəmir. Yəqin ki, oğluna başqa birisini almaq istəyir. Oğlunun isə nişanlısından ayrılmaq niyyəti yoxdur.

Nənəsi Sitarə xanım Kərimi canı qədər sevir və onun üzüntüsünə dözə bilmir. Ən böyük istəyi nəvəsini xoşbəxt görmək, onun toyunda iştirak etməkdir.

O vaxtlar Mətanət evdən gedəndən iki ay sonra Oruc yenidən ailə qurur. Təzə gəlindən evdə hamı razıdır. Qayınanasını çox istəyir, hörmətini saxlayır. Bir qız, bir oğul övladları var. Bircə nigarançılıqları Kərim sarıdandır...



... Mətanət həmişə kədərli mahnılar oxuyur. Bəlkə elə bu kədər onun şəxsi həyatından gəlir? Bəlkə də o, heç xoşbəxt deyil, nə bilmək olar? Bəlkə də keçmiş həyatını özləyir? Axı deyirlər insan yaşa dolduqca keçmişə daha çox boylanır, həsrət onu yandırıb-yaxır, bəzi saatları, anları, saniyələri yenidən yaşamaq istəyi adamı dəli edir. Bəlkə elə oxuduqca ağlaması Mətanətin dəli həsrətindən xəbər verir, bilmək olmaz ki...

Küsülüləri barışdıran Novruz qapımızın ağzındadır. Qoy onun qədəmləri xoş olsun və bütün incik qəlblər bir-birilə barışsın. Qoy bu bayram hamıya sevinc, səadət gətirsin. Mətanət İsgəndərli bizlərdən biridir - adi insandır. Özəl xüsusiyyəti məlahətli və kədərli səsinin olmasıdır. Bu bayram günlərində arzulayardıq ki, Mətanət xanımın səsi bundan sonra da dağ şəlaləsi kimi çağlasın. Sevənləri bir-birindən ayırmasın - hər nə səbəb olsa da. Bu dünyanın əbədi olmadığını bir daha xıtarlasın və iki məhəbbət dolu ürəyi parçalamağa çalışmasın.

**Xatirə Əsilbəyli**



# ASTROLOJİ PROQNOZ

*(20-27 mart, 2005-ci il)*

**QOÇ (21 mart - 20 aprel).** Bu günlər çox cazibədar görünəcək, görünüşünüzlə çoxlarını təəccübləndirəcəksiniz. İnadınızı bir yana qoyub özünüzdə inam yaratsanız, hər şey istədiyiniz kimi olacaq.

**BUĞA (21 aprel - 20 may).** Vaxtınızın çox hissəsini dostlara ayırın. İş görüşləri gözlənilir. Uğurlu iş görüşməsi keçirmək üçün ağıllı addımlar atmağınız məsləhətdir.

**ƏKİZLƏR (21 may - 21 iyun).** Siz əliaçıqsınız. Bu xasiyyətiniz sayəsində dostlarınız çoxalacaq. Sizi böyük dəyişikliklər gözləyir. Hər xırda yenilik əhvali-ruhiyyənizin qalxmasına səbəb ola bilər. Səbirli olsanız, tezliklə hər şey öz yoluna düşəcək.

**XƏRÇƏNG (22 iyun - 22 iyul).** İşləriniz başınızdan aşır. Hər şey tərs gətirə bilər. Bütün bunlara laqeyid yanaşmaq olmaz. Özünüzə vaxt ayırmağı unutmayın. Qəlb xəstəliyindən özünüzü qoruyun.

**ŞİR (23 iyul - 23 avqust).** Hər an yeni layihələr və yeni planlar həyata keçirməyə hazırsınız. Bol pul gətirəcək və ürəyinizcə olan işlər lap yaxındadır. Sizdən yalnız bacarıq tələb olunur. Lakin ailə münasibətlərini yaddan çıxarmayın.

**QIZ (24 avqust - 23 sentyabr).** Bu həftə sizin üçün ağır keçə bilər. Məqsədinizə çatmaq üçün böyük əmək sərf etməlisiniz. İştirak edəcəyiniz bəzi görüşlər sizin həyatınızda böyük dəyişikliklər edəcək.

**TƏRƏZI (24 sentyabr - 23 oktyabr).** Uğurlu bir həftə keçirəcəksiniz. Siz özünüzü dostlarınızdan və ailənizdən asılı hesab edirsiniz. Buna görə narahat olmağa dəyməz. Əsəblərinizin sakit olması çox vacibdir.

**ƏQRƏB (24 oktyabr - 22 noyabr).** Yeni iş təklifi ilə qarşılaşacaq, eyni anda bir neçə vəzifənin öhdəsindən gəlmək məcburiyyətində qalacaqsınız. İstirahət etmək vaxtı olsa da, bütün diqqətinizi işə yönəldin. Əlinizə düşən şansı qaçırmayın.

**OXATAN (23 noyabr - 21 dekabr).** Ağır həftəni geridə qoymaq bir qədər çətin olacaq. Amma yorğunluqdan yaxa qurtarmaqda sevgiliniz sizə kömək edəcək. Atacağınız hər addımı yaxşı fikirləşin. Xırda səhvlər fəlakətə yol aça bilər.

**OĞLAQ (22 dekabr - 20 yanvar).** İşləriniz qaydaya düşəcək. Sevgilinizlə aranızda problemlər yarana bilər. Lazımsız qısqanclıqlar edərək onun qəlbini sındırmayın. İdmanla məşğul olmaq məsləhətdir.

**DOLÇA (21 yanvar - 20 fevral).** Dost sandığınız insanlar sizi öz hərəkətlərilə təəccübləndirəcək. Onlara inanmayın. Xoşbəxt və sevinclisiniz. Buna sevgiliniz səbəb olacaq. Ona çox vaxt ayırın.

**BALIQ (21 fevral - 20 mart).** Maliyyə problemlərinin yaşanmaması üçün hər addımınızı yüz ölçüb bir biçməlisiniz. Hər şey sizin əlinizdədir. Sağlamlığınızın qeydinə qalın. Çoxlu meyvə yeyin.

**Bir məsələni də yaddan çıxarmayın ki, hər şey Allahın əlindədir.**

Təsisçi
Mürvət HƏSƏNLİ
*mhasanli@khamsa.az*

Baş redaktor
Ramazan QAFARLI
*editor@khamsa.az*

Redaktorlar
Xatirə ƏSİLBƏYLİ
Təbib ƏLİYEV

Məsul katib
Günay

Dizayner
Ləman

Fotomüxbir
Tural
Yayım meneceri
Vəli NURAYEV

Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Şəhadətnamə № 92
VÖİN: 1600086641

H/h.: 38090002310000
Texnikabankın Nəsimi filialı, kod 508579

"Xəmsə" jurnalının kompüter mərkəzində yığılıb, "Ekspress" mətbəəsində çap edilmişdir.

Redaksiyaya daxil olan əlyazmalar bir ay müddətində saxlanılır.
Redaksiya ilə müəlliflərin mövqeyi uyğun olmaya bilər.
Redaksiyanın ünvanına və *e-poçtuna* məktublarınızı göndərə bilərsiniz.

Ünvan:
İndeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04
Tel./Faks: 470 03 33
Sifariş 041,
Sayı: 1000